# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

6-8
APREL
2019-cu il
№ 61 (3959)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# BAKI-TİFLİS-QARS DAXİL AZƏRBAYCANIN NƏQLİYYAT DƏHLİZLƏRİ NATO-nun TƏHLÜKƏSİZLİK PRİORİTETLƏRİ SIRASINDA...

■ səh. 4 ■



■ səh. 3 ■

## Prezident yerlərdən aldığı məktubların məzmunu barədə məcburi köçkünləri də məlumatlandırdı

*«Seçkilər ərəfəsində demişdim ki, yeni iqtisadi modelə keçid edəcəyik...»*



## Azərbaycan-Türkiyə-Pakistan hərbi təlimləri - Qarabağ müharibəsinə hazırlıq addımı...

■ səh. 5 ■



## Köçəryançı Samvel Babayan Qarabağda Paşinyanın yuxusunu «ərşə çəkdi»

■ səh. 8 ■

## Bakı Nəqliyyat Agentliyinin 1 manatlıq kartları sərnişindən 20 qəpiyini xəbərsiz oğurlayır...

■ səh. 11 ■


Paşinyan İlham Əliyevlə görüşdən qabaq cəsarətli danışırdı, görüşdən sonra cəsarət yoxa çıxdı ■ səh. 9 ■

Azərbaycanın Avroittifaqla başladığı iki yeni dialoq mövzusunun mahiyyəti... ■ səh. 5 ■

"Metsamor" 2026-cı ilə kimi fəaliyyət göstərsə - partlayış təhlükəsi anbaan yaxınlaşır... ■ səh. 6 ■

Qərbdən sonra Rusiyadan da soydaşlarımız arasında Azərbaycanın dövlət simvollarına qarşı təhqirlər başlayıb ■ səh. 4 ■

Soğan-kartof qıtlığı - kənd təsərrüfatı istehsalının planlaşdırılması pis vəziyyətdədir ■ səh. 10 ■

Kibertəhlükəsizliyin Azərbaycan modeli - MDB-də 4-cü yer nəyin hesabınadır... ■ səh. 7 ■

Milli Akademiyanın iki institutu arasında quş adlarına görə problem yarandı ■ səh. 14 ■

2 saylı türmədə kütləvi dava deyilən hadisədə nə baş verib... ■ səh. 11 ■


■ səh. 6 ■

## Gürcüstan-Azərbaycan sərhədlərinin dəqiqləşdirilməyən 34 faizi nə deməkdir...



■ səh. 10 ■

## Bank kreditləri əslində neçə faiz olmalıdır...



■ səh. 8 ■

## Paşinyan yeni struktur yaratdı və ölkədəki demoqrafik fəlakəti tam etiraf etdi



■ səh. 14 ■

## Sığorta edilməyən əmlaka görə cəzanı sərtləşdirmək?...



■ səh. 13 ■

## Mirzə Cəlil irsini təftiş edənlərə qarşı məşhur cəlilşünasların da səsi eşidilməyə başladı





# Prezident icra başçılarının yerini dəyişdi

**Prezident İlham Əliyev Asif Hüseynovun Şabran Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Digər sərəncamlarla Novruz Nəcəf oğlu Novruzov Şabran Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib və Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Asif Həbib oğlu Hüseynov isə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə də yeni təyinat olub. Dövlət başçısının sərəncamları ilə Nizaməddin Məhəmməd oğlu Quliyev Goranboy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Müvafiq sərəncamlarla Məhərrəm Böyükağa oğlu Quliyev Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək Goranboy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.




## Elmar Məmmədyarov Rusiya xarici işlər naziri Sergey Lavrovla görüşüb

**5 aprel tarixində Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edən Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Rusiya Federasiyasının xarici illər naziri Sergey Lavrovla ikitərəfli görüş keçirib.**

Görüş zamanı Azərbaycanla Rusiya arasında siyasi dialoqun və çoxşaxəli əməkdaşlığın yüksək səviyyədə olduğundan məmnunluq ifadə edilib və qarşılıqlı maraq doğuran məsələlərə toxunulub.

# MŞ "Karolina Valiant"ın iddiası ilə "yenixeber.org"a xəbərdarlıq etdi

*Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib*

**Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.**

"Karolina Valiant" mağazasının nümayəndəsi Hüseyn-Xəzər Məmmədovun "yenixeber.org" saytına qarşı şikayətini araşdıran komissiya üzvləri müəyyən ediblər ki, narazılıq doğuran material hazırlanarkən balans prinsipi pozulub, obyektivlik gözlənilməyib. KİV qurumunun əməkdaşları tənqid ruhlu materialda 3 obyekt haqqında kifayət qədər sərt iddialar səsləndirsələr də, qarşı tərəfin mövqeyinin öyrənilməsi və dərci üçün cəhd göstərməyiblər. "Karolina Valiant"ın təmsilçisinin mövqeyi aydın olsa da, onu qısa şəkildə, kontekstdə uyğunsuz formada təqdim ediblər. MŞ adından "yenixeber.org" saytına xəbərdarlıq edilib, qısa müddətdə qarşı tərəfin rəyini dərc etmək tövsiyə olunub.




İclasda "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" İctimai Birliyinin Bakı şəhəri Nərimanov rayonu üzrə 7 №-li filialının İdarə Heyətinin "emtv.az" saytına qarşı şikayəti də araşdırılıb. Sayt rəhbəri şikayətdə qeyd olunan iradları aradan qaldırmağa hazır olduğunu bildirib. Şikayətçi tərəf bununla razılaşıb.

Ağstafa Rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin "Xalqxeber.az" və "Dia.az" saytlarına qarşı şikayətinin müzakirəsində xəbər saytlarının təmsilçiləri bildiriblər ki, şikayət doğuran məqalə başqa KİV-ə istinadla verilib, məqalədə əks edilənlər təkzib olunmayıb.

Komissiya üzvləri bildiriblər ki, KİV haqqında qanunda ilk mənbəyə istinad əsas götürülür və istinad edilərsə, hər hansı digər KİV-də yer almış materialı yayımlamaqda məsuliyyət yaranmır. Lakin KİV yayımladığı materialla bağlı araşdırma aparmalı, həqiqəti ortaya çıxarmalı, obyektivliyi təmin etməlidir.

Nəzərə alınmalıdır ki, onlayn medianın sürətli inkişafı dövründə KİV haqqında qanunun 62-ci maddəsindən sui-istifadə halları çoxalmaqdadır. Belə ki, cəmiyyətdə tanınmayan, auditoriyası məhdud olan onlayn resurslarda peşə prinsiplərindən uzaq, korporativ məqsəd daşıyan, sifarişli yazılar yerləşdirilir və sonradan həmin yazılar digər KİV-də ilk mənbəyə istinadla yayılır. Mətbuat Şurası bildirir ki, KİV doğruluğu şübhə yaradan, ehtimal və fərziyyələrə söykənən, qarşı tərəfin mövqeyinin əks olunmadığı materialları yayarkən yalnız istinad məsələsinə deyil, həmçinin tənqid olunan tərəfin mövqeyinin öyrənilməsinə də önəm verməlidir. Bu cəhət onların ictimai nüfuzu və etibarlılığı baxımından son dərəcə vacibdir. Komissiya hər iki sayta bu xüsusda tövsiyə ünvanlayıb və onları gələcək fəaliyyətlərində bu məqama xüsusi diqqət yetirməyə çağırıb.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

## «Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu - Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Avropa Məhkəməsinin azərbaycanlı girovlarla bağlı qərarı yaxın vaxtlarda elan ediləcək

**Avropa Şurası erməni hərbi birləşmələri tərəfindən girov götürülmüş azərbaycanlı Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı müsbət qərarını yaxın vaxtlarda açıqlayacaq.**

Bu barədə özəl olaraq "Trend"ə Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəkili, Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov deyib.

Kollegiya sədri bildirib ki, Ermənistan tərəfi Avropa Şurasından bu ilin mart ayına qədər vaxt istəmişdi: "Mart ayına qədər Ermənistan tərəfi öz mövqeyini bildirməli idi. Avropa İnsan Haqları Məhkəməsi də onlara bu vaxtı vermişdi. Artıq aprel ayıdır. Mən tam əminliklə deyə bilərəm ki, qısa zaman ərzində məsələ öz həllini tapacaq".

O vurğulayıb ki, yaxın müddətdə Avropa İnsan Haqları Məhkəməsi öz qərarını elan etməlidir: "Çünki işin gedişatı, icraat bunu deməyə əsas verir. İş artıq yekunlaşmaq üzrədir. Əminəm ki, bu iş üzrə bizim ədalətli mövqeyimiz nəzərə alınacaq, Şahbaz Quliyev və Dilqəm Əsgərovun hüquqları müdafiə olunacaq və ədalətli, doğru qərar qəbul ediləcək".

A.Bağırov qeyd edib ki, Avropa İnsan Haqları Məhkəməsi qərar çıxarsa, Ermənistan tərəfindən bu qəraı icra etməmək imkanı yoxdur.

Xatırladaq ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüb, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. İşğal altındakı Dağlıq Qarabağda qurulan qanunsuz "məhkəmə"nin qərarı ilə D.Əsgərov ömürlük, Ş.Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib.

"Seçkilər ərəfəsində demişdim ki, yeni iqtisadi modelə keçid edəcəyik..."

# Prezident yerlərdən aldığı məktubların məzmunu barədə məcburi köçkünləri də məlumatlandırdı

*Prezident İlham Əliyev Kürdəxanıda məcburi köçkün ailələri üçün yeni yaşayış kompleksinin açılışında iştirak edib*

**Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi aprelin 5-də istifadəyə verilib. Prezident İlham Əliyev açılış mərasimində iştirak edib.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlət başçısına məlumat verib.

Daha sonra Şuşa rayon 7 nömrəli tam orta məktəbdəki şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, bu təhsil ocağı 560 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb.

Prezident məcburi köçkünlərlə görüşüb və çıxış edərək deyib:

"Sabunçu rayonunda məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin açılışını biz birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Mən çox şadam ki, belə gözəl qəsəbə salınıb, burada 810 ailə yaşayacaq...

Bildiyiniz kimi, sonuncu çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. O vaxta qədər köçkünlərimizin böyük əksəriyyəti çadırlarda yaşayırdı. Təkcə keçən il məcburi köçkünlər üçün 5 mindən çox mənzil inşa edilmişdir. Onlar bu mənzillərə köçürülürlər. Bu il isə bizim planlarımızda minimum 6 min mənzilin istifadəyə verilməsi nəzərdə tutulub. Artıq bu prosesə start verilib və əminəm ki, ilin sonuna qədər biz buna nail olacağıq. Təkcə iki il ərzində təqribən 11 min məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək. Doğrudan da böyük işlərdir və orta hesabla bu mənzillərdə təqribən 50 minə yaxın insan yaşayacaq və öz məişət problemini həll edəcək...

Əlbəttə ki, bizim əsas məqsədimiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə ardıcıl işlər aparılır. Bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Keçən il prezident seçkilərində xalqın mənə verdiyi dəstək imkan verir ki, biz bütün vədləri icra edək. Seçkilər ərəfəsində bildirmişdim ki, biz yeni iqtisadi modelə keçid edəcəyik, bütün sosial məsələlərin həllinə çalışacağıq. Yəni ciddi islahatların, iqtisadi və sosial sahədə islahatların anonsu prezident seçkiləri ərəfəsində verilmişdir. Seçkilərdən sonra ciddi islahatlara start verildi. Bu islahatlar çoxşaxəlidir...

Deyə bilərəm ki, bütün addımlar əhali tərəfindən yüksək qiymətləndirilir. Yerlərdən gələn məktublar və müraciətlər deməyə əsas verir ki, islahatlar xalq tərəfindən dəstəklənir, buna yüksək qiymət verilir və bu bizə əlavə imkanlar yaradır".

Şuşa şəhərindən məcburi köçkün Güneş Hüseynova, Şuşa rayon 7 nömrəli tam orta məktəbin direktoru Elçin Dadaşov və Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva dövlət başçısına məcburi köçkünlərə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq etdikdən sonra Prezident İlham Əliyev bir



daha çıxış edərək deyib ki, "vaxtilə, xüsusilə müstəqilliyimizin ilk illərində erməni lobbisi tərəfindən belə bir rəy formalaşdırılmağa cəhd edilirdi ki, guya Qarabağ onların torpağıdır. Bizim imkanımız yox idi, lobbimiz yox idi, bizim xaricə çıxışımız çox məhdud idi. Amma bu gün biz bütün dünyaya həqiqətləri çatdırırıq və tarixi sənədlər əsasında, maddi-mədəni irs əsasında sübut edirik ki, bu bizim tarixi diyarımızdır".

# Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı keçirildi



**AMEA Rəyasət Heyətində Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimat mərasimi keçirilib.**

"Trend"in məlumatına görə, AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirib ki, elmi faktlara əsaslanan bu sanballı kitab zəngin fikir və mülahizələrlə xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmaq baxımından böyük əhəmiyyətə malikdir.

Kitabın tarixşünaslığımıza dəyərli töhfə və gənc tarixçilər üçün qiymətli mənbə olduğunu bildirən akademik vurğulayıb ki, nəşr Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və ədalətli baxışın formalaşmasına geniş imkanlar yaradacaq.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini qeyd etməklə yanaşı, Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən bir sıra sanballı tədqiqat əsərlərinin müəllifi olduğunu bildirib. Akademik "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının da müəllifin əvvəlki fundamental tədqiqatları kimi böyük elmi əhəmiyyətə malik olduğunu, yeni tədqiqatlar üçün imkanlar açdığını söyləyib. Alim bu kitabı zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisələr, dərin təhlillər əsasında yazılmış, tarixşünaslığımıza töhfə olan əsər kimi dəyərləndirib. Bildirib ki, akademik Ramiz Mehdiyevin Səfəvilər, Nadir şah haqqında tədqiqatları Azərbaycan tarixşünaslıq elmində ən mühüm nailiyyətlərdən biridir. "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı da bu tədqiqatların məntiqi davamı olaraq, həm dəyərli elmi mənbə, həm də gənc tədqiqatçılar üçün istiqamətverici proqramdır. Akademik İsa Həbibbəyli kitabı xanlıqlar dövrümüzə yeni elmi obyektiv baxış kimi dəyərləndirib.

AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə elmlər doktoru, professor İlham Məmmədzadə, Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor Tahirə Məmməd, AMEA-nın Qafqazşünaslıq İnstitutunun ümumi işlər üzrə direktor müavini Şahin Yəhyayev və digər çıxış edənlər də akademik Ramiz Mehdiyevi aktual, tədqiqi zəruri olan kəskin problemləri öncədən görmək və yüksək elmi səviyyədə araşdırmaq qabiliyyəti ilə fərqlənən alim kimi xarakterizə ediblər. Çıxışçılar akademik Ramiz Mehdiyevin alim və vətəndaş mövqeyini əks etdirən bu kitabı tarixşünaslığımızda mühüm hadisə kimi qiymətləndiriblər. Diqqətə çatdırıblar ki, müəllif ilk dəfə olaraq həmin dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə təhlil edib, bir çox qaranlıq məqamlara aydınlıq gətirərək, onilliklər ərzində formalaşmış stereotipləri qırmağa çalışıb. Çıxışlar əsnasında əsərdə tarixşünaslığımızın həmin dövrlə bağlı aktual problemlərinə toxunulduğu, onların optimal həll yollarının göstərildiyi vurğulanıb.

Tədbirdə həmçinin bildirilib ki, sözügedən kitab Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində atılmış mühüm elmi addımdır. Ümumilikdə 22 orijinal sənədin daxil edildiyi toplu xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan sanballı tədqiqat işidir. Nəzər çatdırılıb ki, müəllif xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir, həmin tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirir. Vurğulanıb ki, nəşrdə təqdim edilən və müvafiq şərh və izahlarla müşayiət olunan sənədlər müxtəlif tarixi dövrlərin real mənzərəsinə aydınlıq gətirmək baxımından böyük əhəmiyyətə malikdir. Həmçinin tanınmış alimlərin xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilən kitabda oxucuya həmin dövrün mühüm şəxsiyyətləri və hadisələrinə dair yığcam məlumat verilir. Qeyd olunub ki, nəşr həm peşəkar tarixçilər və mənbəşünaslar, həm də Azərbaycan tarixi ilə dərindən maraqlanan oxucular üçün nəzərdə tutulub.

**Cari ilin 3-4 aprel tarixlərində Vaşinqton şəhərində NATO xarici işlər nazirlərinin növbəti iclası keçirilib. İclas NATO-nun 70-ci ildönümünə həsr olunub. NATO-nun baş katibi Yens Stoltenberq iclas çərçivəsində mətbuata verdiyi açıqlaması zamanı Azərbaycan Respublikasının Alyansın yaxın tərəfdaşı olduğunu bildirib, ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında NATO ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb.**

*"Onlar sona qədər buna təminat vermiş olacaqlar"*

# Bakı-Tiflis-Qars daxil Azərbaycanın nəqliyyat dəhlizləri NATO-nun təhlükəsizlik prioritetləri sırasında...

***Arzu Nağıyev:** "Mühüm əhəmiyyət kəsb edən bu dəhlizlərin qorunması NATO üçün vacib prioritet sayılır"*




Baş katib Azərbaycanın NATO-nun rəhbərliyi altında Əfqanıstanda həyata keçirilən "Qətiyyətli dəstək" missiyasına əhəmiyyətli hərbi qüvvə və multi-modal tranzit töhfəsi verdiyini diqqətə çatdırıb. O, ələlxüsus, 2017-ci ildə fəaliyyətə başlamış Bakı-Tiflis-Qars dəmir yolunun NATO-ya üzv dövlətlər tərəfindən Əfqanıstana və geriyə daşımalar zamanı istifadə olunduğunu qeyd edərək, bu dəmir yolunun Alyansın "Qətiyyətli dəstək" missiyasının uğuruna mühüm töhfə verdiyini vurğulayıb.

Məlum olduğu kimi, Azərbaycan Respublikası ilə NATO arasında tərəfdaşlığın əsası Azərbaycan Respublikasının mərhum prezidenti Heydər Əliyevin 4 may 1994-cü il tarixində Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədini imzalaması ilə qoyulub. Azərbaycan SNT proqramının prinsiplərinə əsaslanmaqla, sülhü dəstəkləmə əməliyyatlarında iştirak, meydana gələn təhlükəsizlik təhdidlərinə qarşı mübarizə və əsas vurğusu təhlükəsizlik və müdafiə islahatlarına yönələn geniş spektrli məsələlər üzrə siyasi dialoq və praktiki əməkdaşlıq həyata keçirir.

Azərbaycan Respublikası 2003-cü ildən başlayaraq NATO-nun Əfqanıstanda həyata keçirilən əməliyyatlarına töhfə verir. Hazırda Azərbaycanın 6 nəfər qərargah zabiti və 2 nəfər hərbi həkim olmaqla, 120 nəfərlik heyəti Alyansın Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasının tərkibində xidmət edir.

Azərbaycan NATO-nun Əfqanıstanda sülhü bərqərar etmə səylərinə, eyni zamanda, hava və quru tranziti, müxtəlif treninqlər, humanitar mina təmizləmə və Əfqanıstan Ordusu üzrə Etimad Fonduna maliyyə töhfələri ilə də dəstək həyata keçirir.

2017-ci ilin 30 oktyabr tarixində açılışı baş tutmuş Bakı-Tiflis-Qars dəmir yolu Əfqanıstana multimodal daşımalar üçün geniş imkanlar yaradıb. Bakı-Tiflis-Qars dəmir yolu Lapis-Lazuli nəqliyyat dəhlizinin əsas hissəsini təşkil etməklə, NATO dövlətlərinin Əfqanıstana fasiləsiz və təhlükəsiz şəkildə daşımalar həyata keçirməsinə mühüm töhfə verir. Ələt beynəlxalq dəniz limanı bu sahədə imkanları əlavə olaraq genişləndirəcək. Uzunmüddətli perspektivdə Azərbaycan ərazisindən tranzit NATO-nun Əfqanıstandakı missiyasının təchizatı, habelə Əfqanıstanın davamlı inkişafı kontekstində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Azərbaycandan keçən multi-modal dəhlizlərin təhlükəsizliyinin həm də NATO-nun prioritetləri sırasına daxil edildiyi kimi nəticə çıxarmaq olarmı?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, NATO-nun baş katibinin verdiyi açıqlamadan görünür ki, o, qurumu Azərbaycanın yaxın tərəfdaşı qismində görür:** "Burada bir sıra mühüm amillər var. Çünki Azərbaycan heç bir hərbi blokda təmsil olunmaya-olunmaya, həm Rusiya, həm də NATO ilə mühüm hərbi əməkdaşlıq edir. Biz NATO-nun bütün tədbirlərində yaxından iştirak edirik. Bununla bərabər biz Rusiya ilə NATO arasındakı gərginlikdən istifadə edib balansı pozmuruq. Bunun ən bariz nümunəsi kimi isə mühüm Rusiya-NATO görüşlərinin bir neçə dəfə Bakıda keçirilməsini göstərə bilərik. Bu, inamdan irəli gəlir. Azərbaycandan keçən multi-modal dəhlizlərə NATO-nun böyük maraq göstərməsi birmənalıdır. Çünki Əfqanıstandan başlayaraq, həm də Orta Asiyadan gələn yüklərin gələcəkdə bizim kommunikasiyalardan istifadə olunaraq daşınması və daşınacağı onlar üçün mühüm əhəmiyyətlidir. Burada hərbi yüklərin də olacağını nəzərə alsaq, onda NATO üçün hansı əhəmiyyətə malik olması haqda aydın təsəvvür formalaşar. Hərbi yük deyəndə hərbçilərin təminatı üçün nəzərdə tutulan bəzi yüklərin daşınması nəzərdə tutulur. Boru kəmərləri vasitəsilə nəql olunan enerji daşıyıcıları da NATO üçün böyük əhəmiyyət kəsb edir.

Çünki istiqamətin yönəldiyi bir çox ölkə NATO-nun üzvləridir. Ermənistan və onun havadarları bu multi-modal dəhlizlərin reallaşması üçün bir sıra addımlar atdılar. Ancaq onların heç biri nəticə vermədi. Təbii ki, mühüm əhəmiyyət kəsb edən bu dəhlizlərin qorunması NATO üçün vacib prioritet sayılır. Onlar sona qədər buna təminat vermiş olacaqlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Avropada özünü Azərbaycan iqtidarına müxalifət adlandıran 5-10 nəfərin prezident seçkisi öncəsi sosial şəbəkələrdə əxlaqdan, tərbiyədən uzaq, söyüş dolu ifadələrlə çıxışları nəzərə çarpmağa başladı. Belə fəaliyyət ölkəmizə qarşı açıq düşmənçilik demək idi. Bu, ilk növbədə, həmin insanların mahiyyətini və hansı mənəviyyata sahib olduqlarını ortaya qoyur.**

# Qərbdən sonra Rusiyadan da soydaşlarımız arasında Azərbaycanın dövlət simvollarına qarşı təhqirlər başlayıb




Söyüş ritorikasından yararlanaraq insanları ləkələmək, onlara hər cür böhtanlar atmaqla aşağılamağa çalışmaq, əslində, mənəviyyatsızlıq və siyasi yoxsulluq əlaməti sayılır. Bu gün Avropadan Bakıya ultimatum yağdıran dırnaqarası soydaşlarımızın kiçik bir qrupu məhz bu pozucu yolu tutublar. Avropada oturub heç bir "qırmızı xətt" gözləmədən, özlərini "azad adam" adlandıran, mahiyyətcə ölkəmizin milli maraqları əleyhinə sifariş yerinə yetirən bir qrup adamın çıxışları xəstə təxəyyülün məhsulu olmaqla yanaşı, həm də hüquqi nihilizmin real göstəricisidir. Çünki bu şəxslərin ifadələrindən belə anlaşılır ki, onlar ölkə hüdudlarını tərk etdikdən sonra Azərbaycan əleyhinə istənilən təxribat və öz millətinə nifrət, kin üzərində qurulan çıxışlarında tam azad olduqları düşüncəsindədirlər. Məhz bu üzdən etika, əxlaq, milli ruh hissi olmadan Azərbaycana qarşı düşmənçilik, böhtançılıq, təxribat elementləri bu qədər qabarıq nəzərə çarpır. Ən təəssüfedici hal budur ki, həmin adamlar əsasən Azərbaycan simvollarını hədəfə alırlar. Təəssüflər olsun ki, onların gizləndiyi Avropa ölkələri Azərbaycanın qanuni tələblərinə baxmayaraq, həmin adamlar barədə heç bir ölçü götürmürlər.

Maraqlıdır ki, son vaxtlar belə meyllər artıq Rusiyadan da qaynaqlanmağa başlayıb. Sosial şəbəkələrin imkanlarından istifadə edən Rusiyada yaşayan bəzi soydaşlarımız Avropadakı Orduxanın, Turalın, Mirzəlinin yolunu getmək istəyirlər. Özlərini talış millətinin nümayəndəsi kimi təqdim edən bir dayı-bacıoğlu tandemi ortaya çıxıb. Paylaşımlarında qeyd edirlər ki, onlar Rusiyada biznes fəaliyyəti ilə məşğul olurlar, maddi vəziyyətləri də pis deyil. Buna baxmayaraq, ölkə rəhbərliyinin ünvanına təhqiredici fikirlər yağdırırlar. Belə hadisənin Azərbaycanla yaxın münasibətlərə malik olan Rusiyada baş verməsi maraqlıdır. Söyüşcül dəstənin etnik kartla Rusiyadan efirə çıxmasının arxasında hansı amillər dura bilər?

Beynəlxalq Diaspor Mərkəzinin aparat rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, praktikaya əsaslanaraq bəzi mülahizələrin üzərində xüsusi dayanmaq olar: "Bəzi söyüş makinalarının indi də Rusiyadan görünməyə başlaması təəccüblüdür. Dediyiniz adamları mən də izləmişəm. Avropadakılardan heç nəyi ilə fərqlənmirlər. Əksinə, bir az da təhlükəlidirlər. Çünki etnik kartdan istifadə etməklə Azərbaycanda separatizm toxumlarını səpmək istəyirlər. Çıxışlarında tez-tez milli amili qabardırlar. Fikir versəniz görərsiniz ki, bu amildən ermənilər də məharətlə istifadə edirlər. Hətta öz ərazilərində guya talış millətinin səsi olan televiziya yayımları da edirlər. Rusiyada istər biznes, istərsə də hakim dairələrə erməni lobbisinin güclü təsir imkanları var. Şübhə yoxdur ki, həmin adamları o dairələr fəallaşdırıb. Bununla Azərbaycan dövlətinə qarşı təzyiq üsullarını əllərində saxlamaq istəyirlər. Yeni cücərmək istəyən bu amili yerindəcə zərərsizləşdirmək lazımdır.

Ola bilər ki, hakim dairələr bunu ciddiyə almır. Amma pis presedentin əsası qoyula bilər. Rusiyanın müvafiq qurumlarına bununla bağlı müraciət edilməlidir. Sual oluna bilər: Rusiyada 2 milyon soydaşımız yaşayırsa, niyə bu missiyanı üzərinə məhz etnik azlığın nümayəndələri götürür? Deməli, ortada şübhəli məqamlar var".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan-Türkiyə-Pakistan hərbi təlimləri - Qarabağ müharibəsinə hazırlıq addımı...

***İbrahim Rüstəmli:** ”Azərbaycan onsuz da Qarabağın hərb yolu ilə azad edilməsinə nə vaxtsa başlayacaq”*

**"Türkiyə və Pakistanla birgə hərbi təlimlər keçirmək planlarımız var". Bunu Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov mətbuata açıqlamasında deyib. Nazir bu yaxınlarda Pakistanda səfərdə olduğunu qeyd edərək, iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu nəzərə çatdırıb:**

"Qardaş Pakistan xalqının Azərbaycan xalqına yüksək münasibəti var, Azərbaycan hərbçilərini ayaq üstə salamlayırdlar, ölkəmiz haqqında çox xoş sözlər deyirdilər". Z.Həsənov qeyd edib ki, Türkiyə ordusunun bacarığı yüksək səviyyədədir: "Türkiyənin Silahlı Qüvvələri NATO-nun ən güclü ordularından biridir. Yüksək səviyyəyə və təchizata malikdir. Bizim şansımızdır ki, dinimiz, dilimiz birdir və biz bu şansdan yararlanmalıyıq və yararlanırıq".

O da məlumdur ki, Türkiyə ilə Pakistan siyasi və hərbi baxımdan hər zaman Azərbaycana dəstək veriblər. Bu iki ölkə bütün məsələlərdə Azərbaycanın yanında olub. Türkiyə və Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdir və Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək verirlər. Dağlıq Qarabağ məsələsində adıçəkilən ölkələrin mövqeyi birmənalıdır. Azərbaycanın sıx hərbi əməkdaşlıq qurduğu ölkələrdən biri də Pakistandır. İki ölkə arasında hərbi əməkdaşlıq münasibətlərinin rəsmən inkişafı 2002-ci ilə təsadüf edir. Həmin il hər iki ölkənin müdafiə nazirlikləri səviyyəsində hərbi əməkdaşlığın genişləndirilməsi haqqında saziş imzalanıb.

Onu da qeyd edək ki, Türkiyə və Pakistan dünyada çox güclü ordulara malik ölkələr hesab olunurlar. Hər iki ölkə silahlı qüvvələrinin bir sıra üstünlükləri var. Sözügedən ölkələrin orduları güclü olmaqla yanaşı, həm də ciddi döyüş təcrübəsinə malikdirlər. O baxımdan, Azərbaycanın sözügedən ölkələrlə birgə təlimlər keçirməsinin ordumuz üçün böyük əhəmiyyəti var.

Bütün bunlarla yanaşı, Türkiyə və Pakistanla keçiriləcək birgə təlimlər Azərbaycanın hərb yolu ilə Qarabağı azad etməyə hazırlaşdığı sayıla bilərmi?

**Məsələyə münasibət bildirən hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant İbrahim Rüstəmlinin sözlərinə görə, Azərbaycan işğala məruz qalan ölkə olaraq Qarabağın hərb yolu ilə azad olunmasını heç vaxt istisna etməyib:** "Azərbaycan dəfələrlə bəyan edib ki, torpaqların hərb yolu ilə azad olunması istisna olunmur. Bunu deyəndə Azərbaycan dövləti beynəlxalq hüququ nəzərdə tutur. Bəyan edir ki, nə qədər sülh tərəfdarı olsaq da, torpaqlarımızın ilhaqı ilə heç vaxt barışmayacağıq. Bu gün Azərbaycanın Türkiyə və Pakistanla birgə hərbi təlimlərə hazırlaşması ilk növbədə ölkəmizin Silahlı Qüvvələrinin inkişafına xidmət edən bir tədbirdir. Ordu daim hərbi təlimlərdə olmalıdır. Xüsusən də torpaqları işğala məruz qalan ordu daim təlimlərə önəm verməlidir. Ancaq sözügedən hərbi təlimlərin Azərbaycanın strateji müttəfiqi olan Türkiyə və Pakistan orduları ilə birgə keçirilməsinin xüsusi əhəmiyyəti var. Çünki adıçəkilən ölkələr Azərbaycanın çox etibarlı müttəfiqləridir. Müttəfiq o deməkdir ki, bu ölkələr hər zaman Azərbaycanın yanında olacaqlar. Zatən, bu ölkələr hər zaman bizim yanımızdadırlar. Ən başlıcası isə Türkiyə və Pakistan orduları dünyada ən güclü silahlı qüvvələr hesab olunurlar. O baxımdan sözügedən təlimlər Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması üçün müstəsna əhəmiyyətə malik olacaq. Azərbaycan onsuz da Qarabağın hərb yolu ilə azad edilməsinə nə vaxtsa başlayacaq. Ona görə də keçiriləcək birgə hərbi təlimlərin strateji əhəmiyyəti var. Çünki Azərbaycanın yaxın və uzaq maraqları var. Bunların hər ikisi öz cəbhəsində strateji xarakter daşıyır. Yəni Azərbaycan strateji milli maraqlarını reallaşdırmaq üçün sözügedən təlimləri keçirməklə qarşıdakı məqsədlərinə bir addım da yaxınlaşmış olur. Bilirsiniz, bu kimi tədbirlər Azərbaycan Ordusunun formalaşmasında istisnasız rol oynayır. Mən 25 il orduda xidmət etmişəm. Bir sıra xarici ölkələrdə xidməti ezamiyyətlərdə olmuşam. Ona görə də birgə hərbi təlimlərin ordunun güclənməsi baxımından müstəsna əhəmiyyəti var".




*”Türkiyə və Pakistanla keçiriləcək birgə təlimlər ordumuzun döyüş qabiliyyətinin daha da artırılması baxımından müstəsna əhəmiyyətə malik olacaq”*

***Vidadi ORDAHALLI***

# Azərbaycanın Avroittifaqla başladığı iki yeni dialoq mövzusunun mahiyyəti...

***Elçin Mirzəbəyli:** ”Azərbaycanın həyata keçirdiyi nəqliyyat layihələri bu gün Avropa üçün də mühüm əhəmiyyət daşıyır”*

**Xəbər verildiyi kimi, xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 16-cı iclasında çıxış edib. Məruzədə Azərbaycanın xarici siyasəti barədə bir sıra yeni fakt və mülahizələr söylənib.**




*”İnformasiya təhlükəsizliyi, kibercinayətkarlığa qarşı mübarizə sahəsində ortaq fəaliyyətin həyata keçirilməsi vacibdir”*

Nazir bununla bağlı bir sıra məqamlara toxunub. Onun sözlərinə görə, Azərbaycanla nəqliyyat və təhlükəsizlik sahəsində dialoq başlayıb: "Faktiki olaraq, biz nəqliyyat sahəsində Aİ ilə ayrıca dialoqa başlamışıq. Həmçinin, biz vahid aviasiya üzrə saziş ilə bağlı danışıqlar aparırıq. Yalnız imkanlarımız deyil, həm də çətinliklərimiz var. Buna görə də bu yaxınlarda Təhlükəsizlik Dialoqunu da başlatmışıq. Belə ki, biz təhlükəsizlik, terrorizm və ekstremizmə qarşı mübarizə və digər bir çox məsələlərdə oxşar təsəvvürlə tərəfdaşlığımızı necə siyasi dəstəkləyə biləcəyimizi görmək istəyirik. Qeyri-qanuni miqrasiya ilə birlikdə bu məsələlər hamımız üçün ciddi narahatlıq doğura bilər. Burada xüsusilə nəzərə çatdırmaq istərdim ki, beynəlxalq hüquq prinsiplərinin davam edən pozuntusunun nəticələrinin aradan qaldırılması istiqamətində müvəffəqiyyətsizlik, habelə münaqişənin həlli kontekstində bu prinsiplərin yanlış təfsir olunması və selektiv tətbiqi qaydalara əsaslanan Avropa düzənini pozur".

E.Məmmədyarov onu da qeyd edib ki, Aİ qonşuluq siyasətini inkişaf etdirirsə və regionda digər ölkələrə gəldikdə buna siyasi, maliyyə baxımından bu qədər çox sərmayə qoyursa, onda əlbəttə ki, qaydalara əsaslanan bir yanaşma olmalıdır. Ümumilikdə, nəqliyyat və təhlükəsizlik sahəsində Azərbaycanla Aİ arasında dialoqun başlaması yeni mərhələdir. Bütövlükdə, bunu ekspertlər necə dəyərləndirirlər?

**MųSųLųYų MÜNASİBųT BİLDİRųN POLİTOLOQ ELÇİN MIRZųBųYLİNİN SÖZLųRİNų GÖRų, SÖZÜGEDųN SAHųLųR ÜZRų DİALOQUN BAŞLAMASI MÜSBųT TENDENSİYADIR:** "Çünki Azərbaycanın həyata keçirdiyi nəqliyyat layihələri bu gün Avropa üçün də mühüm əhəmiyyət daşıyır. Təkcə Aİ ölkələri üçün deyil, ümumilkdə, NATO ölkələri üçün bunun mühüm əhəmiyyəti var. NATO baş katibinin Bakı-Tiflis-Qars dəmir yoluna verdiyi önəm buna əyani sübutdur. Azərbaycanın həyata keçirdiyi logistik layihələr ölkəmizi ciddi bir nəqliyyat qovşağına çevirir. Ən önəmli cəhətlərdən biri də odur ki, yaradılan nəqliyyat qovşağı rəqabətə davamlıdır. Bu təkcə rəqabət üçün deyil, eyni zamanda, qarşılıqlı faydalı əməkdaşlıq üçün nəzərdə tutulub. Azərbaycanın həyata keçirdiyi nəqliyyat layihələri arasında sinerji qurulub. Bu da imkan verir ki, dünyanın bütün qütblərindən gələn yüklər Azərbaycandan keçsin, buna zəmin yaransın. Azərbaycandan keçən yollar ən qısa və təhlükəsiz hesab olunur. Ona görə də Azərbaycanla Aİ arasında nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi hər iki tərəf üçün əhəmiyyət kəsb edir. Təhlükəsizlik sahəsində dialoqa gəldikdə isə, bu, geniş bir sektorda yanaşma tələb edən amildir. Terrorizmə qarşı mübarizədə Azərbaycan aktiv rol oynayır. İnformasiya təhlükəsizliyi, kibercinayətkarlığa qarşı mübarizə sahəsində ortaq fəaliyyətin həyata keçirilməsi vacibdir. Ən önəmli faktor isə Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsidir. Fikrimcə, Cənubi Qafqazda təhlükəsizliyin dayanıqlı təmin edilməsi bundan keçir. O üzdən, Aİ bu yöndə də səylərini artırsa, daha məqsədəuyğun olar".

***Vidadi ORDAHALLI***

# Gürcüstan-Azərbaycan sərhədlərinin dəqiqləşdirilməyən 34 faizi nə deməkdir...

**Rəsmi Tiflis Gürcüstanın Azərbaycanla dövlət sərhədinin 34% demarkasiya və delimitasiyasının həll olunmaması barədə açıqlama ilə çıxış edib. Bu, Azərbaycanın siyasi dairələri tərəfindən birmənalı qarşılanmayıb. Xüsusilə də Ermənistan KİV-inin bu açıqlama ətrafında səylər göstərərək iki ölkə arsındakı münasibətlərə xələl gətirmək cəhdi nəzərə çarpır.**

*"34 faizlə bağlı səslənən rəsmi fikri, heç bir halda, ərazi iddiası kimi qəbul etməməliyik"*

Zaman-zaman KİV-də Gürcüstanla dövlət sərhədinin Ağstafa hissəsində qədim alban kilsəsinin mövcudluğu və Tiflisin həmin kilsəni özünün qədim irsi hesab etməsi haqda məlumatlar yayılıb. Ancaq bu gün ümumi sərhədin 34 faizinin mübahisəli olduğunu iddia etmək çox ciddi ittiham sayıla bilər.

Azərbaycan və Gürcüstanın müstəqilliyinin bərpasından sonra iki ölkənin sərhədlərinin delimitasiya-demarkasiyasının aparılması təbiidir. Bu istiqamətdə müzakirələr 20 ildən çoxdur davam edir. Müzakirələrin gedişində ərazi mübahisələrinin yaranması gözlənilən idi. Məsələn, bu mübahisələrin əsas predmetləri sırasında Keşikçidağ kompleksini və Qırmızı Körpü ətrafındakı müəyyən əraziləri göstərə bilərik. Hələlik Azərbaycan tərəfi Gürcüstanın iddiasına rəsmi cavab verməyib.

**Politoloq Fikrət Sadıqov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələni siyasiləşdirərək başqa mənalar axtarmağa ehtiyac yoxdur:** "Ümumi sərhədləri olan ölkələr arasında belə proseslər baş verir. Nəzərə alsaq ki, biz vaxtilə bir ölkənin tərkibində yaşamışıq və həmin zaman incə detallara o qədər də fikir verilməyib. Ölkələr müstəqil olandan sonra isə hər qarış torpaqla bağlı dəqiqləşdirmə aparılır. Biz bilirik ki, Gürcüstanla Azərbaycan arasında delimitasiya haqqında danışıqlar uzun müddətdir aparılır. Bununla bağlı bir-birimizin arasında ziddiyyətli məqamlar nəzərə çarpmır. Aydın məsələdir ki, Gürcüstanda ərazi iddiaları ilə çıxış edən dairələr az deyil. Amma biz bunu dövlət səviyyəsində görmürük. 34 faizlə bağlı səslənən rəsmi fikri, heç bir halda, ərazi iddiası kimi

***Fikrət Sadıqov:*** *"Bu məsələni siyasiləşdirərək başqa mənalar axtarmağa ehtiyac yoxdur"*




qəbul etməməliyik. Əslində, belə bir dəqiqləşdirmənin aparılması Azərbaycana da lazımdır. Ölkələrimiz arasındakı münasibətlər bu məsələni tam çözməyə imkan verir.

Bu danışıqlar qarşılıqlı şəkildə həyata keçirilir. Bizim vaxtilə Rusiya ilə də delimitasiya məsələsində aramızda mübahisələr var idi. Amma gördünüz ki, sakitliklə öz həllini tapdı. Hazırda Gürcüstanla Azərbaycan arasındakı münasibətlər elə vəziyyətdədir ki, biz onu gərginləşdirib nifrət səviyyəsinə gətirib çıxarmamalıyıq. Çünki Gürcüstan bizim partnyorumuzdur. Həm də onların bizə böyük ehtiyacı var. Sağlam düşüncəli gürcü siyasiləri də bunu yaxşı dərk edirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# "Metsamor" 2026-cı ilə kimi fəaliyyət göstərsə - partlayış təhlükəsi anbaan yaxınlaşır...

**Ermənistanda yerləşən, bütün bölgə üçün ciddi təhlükə mənbəyi olaraq köhnəlmiş Çernobıl texnologiyası əsasında fəaliyyət göstərən "Metsamor" atom elektrik stansiyasının (AES) istismarının dayandırılması üçün Azərbaycan dəfələrlə məsələ qaldırsa da, bu təhlükəli obyektin fəaliyyətinə hələ də son qoyulmayıb. Digər tərəfdən, "Metsamor" AES-in nüvə və radioaktiv maddələrin qaçaqmalçılığı baxımından ciddi təhlükə mənbəyi olduğu da artıq heç kimə sirr deyil.**



İndiyə qədər Ermənistan dünya ictimaiyyətinin AES-in fəaliyyətini dayandırmaq tələblərini qulaqardına vuraraq, onun istifadə müddətini 2026-cı ilə kimi uzatmaq barədə qərar qəbul edib. Halbuki, "Metsamor" AES-də dünyanın ən köhnə reaktorları istifadə edilir. Burada yerləşən reaktorlardan biri 1976-cı ildə, digəri isə 1980-ci ildə fəaliyyətə başlayıb. Hazırda bu reaktorlardan ikincisi fəaliyyətdədir. Bu arada isə bəlli olub ki, Ermənistan Rusiyaya "Metsamor" stansiyasının müasirləşdirilməsi üçün ayırdığı krediti vəsait olmadığına görə qaytara bilmir. Ermənistanın Energetika və Təbii Sərvətlər Nazirliyinin beynəlxalq əlaqələr üzrə idarəsinin rəisi Tiqran Melkonyan kreditin ödəmə vaxtının təxirə salınmasını istəyib: "Metsamor" AES-in istismar müddətinin uzadılması layihəsinin reallaşdırılması işlərinin yubanması ilə bağlı məsələni qaldırmaq istəyirəm. Biz bir neçə həm obyektiv, həm də subyektiv səbəblər aşkarlamışıq. Layihənin uğurla başa çatması üçün kreditin qüvvədə olma müddətinin uzadılması barədə qərar qəbul etmək lazımdır. Hələlik kredit üzrə illik ödənişlərin yeganə mənbəyi "Metsamor" AES-in elektrik enerjisinin satışından əldə edilən vəsaitdir". Lakin bu vəsait heç stansiyanın saxlanmasına kifayət etmir. Digər tərəfdən, stansiyanın müasirləşdirilməsi prosesi də yarımçıqdır və Rusiya bunun üçün əlavə vəsait ayırmaq istəmir. Elə bu səbəbdən stansiya əvvəlki kimi ciddi təhdid mənbəyi olaraq qalır.

Əslində, Ermənistanda da etiraf edirlər ki, yol verilən korrupsiya üzündən "Metsamor" AES-də hansısa ciddi müasirləşdirilmə həyata keçrilməyib. Bu səbəbdən stansiyada hər an qəza yaşana bilər. Burada mümkün qəza onun nüvə reaktorunun dağılmasına və radioaktiv tullantıların ətrafa yayılmasına gətirib çıxara bilər.

AES-ın sıradan çıxması nəticəsində yaranan radioaktiv toz ətraf şəhər və qəsəbələrin birbaşa radioaktiv çirklənməyə məruz qalmasına səbəb olacaq. Ərazinin relyefini də nəzərə alsaq, radioaktiv zonanın ilk növbədə Ermənistanın özünü əhatə edəcəyini, ümumilikdə ilk mərhələdə təqribən 50 min nəfər insanın zəhərlənəcəyini və tələf olacağını, eləcə də yaxın 150 ildə bu məkanda yaşayışın məhdud olacağını ehtimal etmək mümkündür.

Hesablamalar göstərir ki, qəza nəticəsində ilk 1 saat ərzində əhalinin sıx məskunlaşdığı İrəvan, Eçmiədzin və Armavir şəhərlərində 25-30 min nəfər insanın zərər çəkməsi və məhv olması istisna deyil. Növbəti 2-4 saat ərzində isə Ararat, Razdan, Vanadzor, Spitak, 4-6 saat ərzində isə Stepanavan, Alaverdi, İcevan, Vardenis kimi şəhərlər də çirklənmə zonası əhatəsində olaraq güclü şüalanma təsirinə məruz qalacaq. Sonrakı bir neçə gün ərzində isə radioaktiv şüalanma zonasının genişlənməsi nəticəsində radiasiya və digər şüalanma səbəbindən zərər çəkən və ölənlərin sayı təqribən 40-50 min nəfər olacaq.

Xatırladaq ki, hələ 1988-ci ildə Metsamordan 75 kilometr aralıda yerləşən Spitakda baş vermiş zəlzələdən sonra 1989-cu ildə AES-in fəaliyyəti dondurulub. Ermənistan üzləşdiyi ciddi enerji böhranı ilə əlaqədar 1993-cü ildə AES-in fəaliyyətini bərpa etmək barədə qərar qəbul edib və 1995-ci ildə ikinci enerji bloku işə salınıb. Bu stansiya birinci nəsil VVGR-440 tipli Rusiya istehsalı olan reaktorla təchiz edilib. Amma indinin özündə hətta Ermənistanda belə bu reaktorun nə dərəcədə təhlükəli olduğunu başa düşən və onun əleyhinə olan insanlar var. Buna rəğmən, Ermənistan rəhbərliyi yarana biləcək çox böyük təhlükəyə baxmayaraq, AES-in ömrünü uzatmağa çalışır. Halbuki, "Metsamor" AES üçün ən təhlükəli digər məqam elə onun seysmoloji cəhətdən çox həssas ərazidə yerləşməsidir. Məsələ burasındadır ki, müasir tələblər zəlzələ baş verən anda reaktorun ani dayandırılmasını nəzərdə tutur və bundan sonra təcili olaraq reaktorun soyudulması vacibdir. Bunu yaponlar "Fukuşima-1" AES-də həyata keçirə bilmədilər. Nəhəng sunami dalğaları buna imkan vermədi. Zəlzələ anında reaktor durdurulsa da, onu anında soyutmaq mümkün olmadığına görə partlayış baş verdi. "Metsamor" AES-də də reaktorun anında dayandırılması mümkün olsa da, reaktorun soyudulması üçün hazırlıq işlərini həyata keçirmək mümkün deyil. Digər tərəfdən, "Metsamor" AES-də reaktor çox köhnə olduğuna görə qəza anında xaricə çıxan radioaktiv maddələrin qarşısını alacaq müvafiq avadanlığı, sızma müdafiəsi də çox zəifdir.

Elə bu da stansiyanın ciddi təhdid mənbəyi olduğunu bir daha nümayiş etdirir. Özü də bu təhdid təkcə Cənubi Qafqazı yox, Yaxın və Orta Şərq, eləcə də Avropa üçün nüvə təhlükəsizliyi baxımından dəhşətli fəlakətlər vəd edir. Azərbaycan bu fonda bəyan edir ki, dünya, xüsusən də Avropa genişmiqyaslı təhdidlər mənbəyi olan Ermənistana xüsusi diqqət ayırmalı, təhlükələrin neytrallaşdırılmasından ötrü təxirəsalınmaz tədbirlər görülməlidir. Əks təqdirdə dünya bundan ciddi ziyan görə bilər.

***Nahid SALAYEV***

# Kibertəhlükəsizliyin Azərbaycan modeli - MDB-də 4-cü yer nəyin hesabınadır...

**Bu gün dünyanın həlli çətin olan problemlərindən birinə çevrilən kibertəhlükəsizlik qlobal bir məsələ kimi bütün dövlətləri ciddi narahat edir. İndiyə qədər dünyanın müxtəlif ölkələrinin iri şirkətləri, bankları, eləcə də digər mühüm dövlət qurumları kiber hücuma məruz qalıblar.**



*"Elektron Təhlükəsizlik Xidmətinin fəaliyyəti qeyri-dövlət sektorunda, vətəndaşlar arasında daha da canlandırılmalıdır"*

Hətta Azərbaycan özü bir neçə dəfə kiberhücumla qarşılaşıb. Bu problemin aradan qaldırılması üçün dövlət səviyyəsində genişmiqyaslı işlər həyata keçirilib.

Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının tərtib etdiyi "Qlobal kibertəhlükəsizlik indeksi 2018" reytinqində 55-ci yerdə qərarlaşıb. Məlumata görə, ölkəmiz bu reytinqə qalxmaq üçün 0.653 xal toplayıb. Bunun nəticəsində də Azərbaycan MDB ölkələri arasında Belarus, Ermənistan, Tacikistan, Qırğızıstan və Türkmənistanı qabaqlayaraq 4-cü olub. Dünya ölkələri arasında Azərbaycan Serbiya, Yunanıstan, İran, İslandiya kimi ölkələri qabaqlayıb. Reytinqdə ilk üçlükdə isə Böyük Britaniya, ABŞ və Fransa qərarlaşıb. Ölkəmiz kibertəhlükəsizliklə mübarizədə irəliləyişə necə nail olub?

## *Osman Gündüz: "Ölkəmizdə son dövrlər kibertəhlükəsizliklə bağlı bir sıra addımlar atılıb"*

**İKT üzrə tanınmış mütəxəssis Osman Gündüz "Bakı-Xəbər"ə bildirdi ki, son dövrdə Azərbaycanda bu sahədə xeyli iş görülüb və həyata keçirilən tədbirlər nəticəsində ölkəmiz bu nailiyyəti əldə edib.** "Ümumiyyətlə, ölkəmizdə son dövrlər kibertəhlükəsizliklə bağlı bir sıra addımlar atılıb. Xüsusən də infrastruktur, qanunvericilik, koordinasiya işləri ilə bağlı xeyli iş görülüb. Deyim ki, burada əsas məsələlərdən biri koordinasiyadır. Yəni kibertəhlükəsizlik məsələlərində koordinasiya ilə əlaqədar Prezident tərəfindən bir neçə sərəncam, fərman imzalanıb. Bizdə kibertəhlükəsizliklə məşğul olan qurumlar var. Məsələn, bu istiqamətdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xüsusi Mühafizə Xidməti, Azərbaycan Elmlər Akademiyasının müvafiq qurumu və digər təşkilatlar fəaliyyət göstərirlər. Bunların fəaliyyətinin koordinasiyası üçün bir qrup yaradılıb, onun əsasnaməsi təsdiqlənib, səlahiyyətləri müəyyən olunub. Azərbaycanda kiberhücümların qarşısının alınması üçün koordinasiya məsələsində müsbət istiqamətdə xeyli addım atılıb. Eyni zamanda, burada qanunvericiliyin təkmilləşməsi məsələsi də var. Son dövrlər bu istiqamətdə hüquqi sənədlər qəbul edilib. Lakin bunları yetərli hesab etmək olmaz. Bizdə zaman-zaman baş verən hadisələr göstərir ki, bu sahədə problemlər var. Düşünürəm ki, bu istiqamətdə problemlər daha çox qeyri-dövlət sektorunda müşahidə edilir".

O. Gündüzün sözlərinə görə, vətəndaşlar, media qurumları, bir sözlə, qeyri-dövlət qurumları daha çox kibertəhlükəsizliklə, informasiya təhlükəsizliyilə üzləşirlər. Bu problemlərin həllində səlahiyyətli qurum Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətidir: "Düşünürəm ki, NRYTN-in yanında Elektron Təhlükəsizlik Xidmətinin fəaliyyəti qeyri-dövlət sektorunda, vətəndaşlar arasında daha da canlandırılmalıdır. Fikrimcə, bu sahədə görüləcək işlər çoxdur. Son dövrlər bu istiqamətdə bir sıra tədbirlər keçirilsə də, bunları yetərli hesab etmək olmaz".

*İradə SARIYEVA*

# Tarix İnstitutunda ixtisar təhlükəsi varmı...

**Son aylar Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) sistemində həyata keçirilən struktur dəyişiklikləri artıq AMEA-nın müvafiq elmi-tədqiqat institutlarında da başlayıb. Bir sıra institutlarda struktur dəyişiklikləri nəticəsində bəzi şöbələr ləğv edilib və onların əvəzinə yeni şöbələr yaradılıb.**




AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunda da struktur dəyişikliyinə start verilib. Tarix İnstitutunun mətbuat xidmətindən verilən məlumata görə, struktur dəyişikliyi nəticəsində 1 yeni şöbənin yaradılması və 1 şöbənin adının isə dəyişdirilməsi baş verib. İnstitutun Elmi Şurasının qərarına əsasən, institutda yeni yaradılacaq şöbənin adı "Azsaylı xalqların tarixi"dir və "Mənbəşünaslıq və tarixşünaslıq" şöbəsinin isə adı dəyişdirilərək "Mənbəşünaslıq, tarixşünaslıq və tarixin nəzəriyyəsi" şöbəsi adlandırılıb.

## *Cəbi Bəhramov: "Tarix İnstitutunda heç bir ixtisar aparılmır"*

Tarix İnstitutunda həyata keçirilən struktur islahatları zamanı institutda ixtisarlar gözlənilirmi? Struktur islahatları nəticəsində burada hansı dəyişikliklər nəzərdə tutulur?

**Tarix İnstitutunun direktor müavini Cəbi Bəhramov "Bakı-Xəbər"ə bildirdi ki, bu institutda struktur islahatlarının həyata keçirilməsi institutun fəaliyyətinin müasir tələblərə çatdırılması ilə bağlıdır.** "İnstitutda müasir dövrün tələblərinə uyğun olaraq bəzi məsələlər müzakirə edilib qəbul ediləcək"-deyə bildirən C.Bəhramov institutda heç bir ixtisarın aparılmadığını da qeyd etdi. "Yox, Tarix İnstitutunda heç bir ixtisar aparılmır". C.Bəhramovun sözlərinə görə, ümumiyyətlə, bu məsələ barədə heç bir müzakirə aparılmır.

*AMEA-nın Tarix İnstitutunda "Azsaylı xalqların tarixi" adlı yeni şöbə yaradılıb*

*İradə SARIYEVA*

# Dünya Bankı Azərbaycanda iqtisadi artım proqnozunu yaxşılaşdırıb




**Dünya Bankı Azərbaycan iqtisadiyyatının 2020-ci ildə 3,5 faiz, 2021-ci ildə isə 3,7 faiz artacağını gözləyir. "Trend"in məlumatına görə, bu barədə bankın Avropa və Mərkəzi Asiya üzrə yenilənmiş hesabatında qeyd olunur.**

Bundan əvvəlki hesabatla müqayisədə Azərbaycan iqtisadiyyatının artımı üzrə proqnoz müvafiq olaraq 0,2 faiz və 1 faiz bəndi yüksəlib.

Hesabatda bildirilir ki, 2018-ci ildə Azərbaycan iqtisadiyyatı orta sürətlə artıb, buna sabit neft hasilatı və daxili tələbata orta artım imkan verib. Nəticədə ötən il real ÜDM 1,4 faiz artıb. Neftdən gəlirlər əhəmiyyətli dərəcədə çoxaldıqca fiskal xərclər və real əməkhaqqı da artıb.

Təbii qaz ixracının artması halında ortamüddətli perspektivdə iqtisadi artımın sürətlənəcəyi proqnozlaşdırılır.

Ötən il qeyri-enerji sektoruna investisiyalar 22 faiz yüksəlib.

**Hesabata əsasən, ölkənin beynəlxalq ehtiyatları 5,6 milyard dolların artıb. Azərbaycan Dövlət Neft Fondunun aktivləri 38,5 milyard dollara çatıb ki, bu da ÜDM-in 82 faizini təşkil edir.**

**Qarabağ separatçıları ilə Ermənistanda mövcud hakimiyyət arasında artan gərginliyin daha təhlükəli mərhələyə keçə biləcəyinə dair erməni mediasında yenidən həyəcan təbili çalınmaqdadır. Belə görünür ki, Nikol Paşinyan iqtidarını devirmək istəyənlər bu prosesdə indi Qarabağ ermənilərindən daha çox faydalanmağa çalışırlar.**

# Köçəryançı Samvel Babayan Qarabağda Paşinyanın yuxusunu "ərşə çəkdi"




Belə bir vaxtda "Past" qəzeti məlumat yayıb ki, Qarabağ separatçılarının keçmiş "müdafiə naziri" Samvel Babayan Ermənistanın yeni hökumətinə qarşı fəaliyyətə başlayıb.

Məlumata görə, Babayan artıq bir aydır İrəvanda və Azərbaycanın işğal altında saxlanan Qarabağ ərazisində görüşlər keçirir: "Bu görüşlər açıq antipaşinyan xarakteri daşıyır. Xüsusilə bu günlərdə Samvel Babayan qarabağlılarla görüşü zamanı Paşinyanı yanlış istiqamətdə danışıqlar aparmaqda ittiham edib. Bu da göstərir ki, Babayan da artıq "torpaqların verilməsi" nəzəriyyəsini irəli sürənlərə qoşulub və özünü Paşinyanın qarşısını ala biləcək yeganə şəxs kimi göstərir. Baş naziri artıq dəfələrlə Samvel Babayanın ciddi başağrısı olacağıyla bağlı xəbərdar ediblər".

Qeyd edək ki, bundan öncə Babayan qondarma rejimdə baş tutacaq "prezident seçkisi"nə qatılmaq istədiyini açıqlayıb. Belə görünür ki, o, burada yerini möhkəmlədərək daha sonra Paşinyanı postundan aşırmağı düşünür. Məhz bu durumda Paşinyan üçün əsas məsələ Qarabağdan ona gələn təhlükələri neytrallaşdırmaqdır. Bu məqsədlə Paşinyan ilk olaraq Samvel Babayana dəstək verən separatçı rejimin hərbçilərini sıradan çıxarmağa çalışır. İşğal altında olan Qarabağdakı qanunsuz hərbi birləşmənin komandir müavini olan Samvel Karapetyanın vəzifəsindən azad edilməsi bunun ilk nümunələrindən biri sayılır. Prosesi müxalifətçi "deputat" Hayk Xanumyan hərbi elitanın nəsil dəyişməsi kimi dəyərləndirib. Politoloq Aleksandr Kananyan hesab edir ki, Samvel Karapetyanın iştirakı ilə baş verən bütün hadisələr araşdırılmalı, zərurət olduğu halda o, məsuliyyətə cəlb edilməlidir. "Sasna Tsrer" partiyasının həmtəsisçisi Varujan Avetisyan Qarabağda başlanan dəyişiklikləri gecikmiş addım hesab edir. Keçən ilin sonunda qanunsuz hərbi birləşmə komandiri Levon Mnatsakanyan da tutduğu vəzifədən çıxarılaraq aşağı vəzifəyə - "fövqəladə hallar xidmətinə" rəis təyin edildi. Aleksandr Kananyan qeyd edir: "Bunların böyük əksəriyyəti "1 mart" cinayətinin, Laçın qırğınlarının qəhrəmanlarına çevrilmişdi. Ona görə də bu dəyişikliklər inqilabdan bir il sonra "məxməri inqilab" təəssüratı altında yox, çoxdan edilməli idi. Amma Paşinyan həmin şəxslərin onun üçün təhdid olduğunu görüb indi bu addımları atır".

Digər tərəfdən, Paşinyanı narahat edən bir məsələ də uzun müddətdir Qarabağda olan sabiq prezident Serj Sarksiyanla bağlıdır. Məlumatlara əsasən, Paşinyan Serj Sarksiyanın da Samvel Babayana dəstək verə biləcəyindən ciddi narahatlıq keçirir. "Joxovurd" nəşri yazır ki, hətta bütün bunlara görə Paşinyan aprelin 7-də Hovan kilsəsinin qurulması ilə bağlı Qarabağda keçirilməsi nəzərdə tutulan mərasimə qatılmayacaq. Ermənistanın baş naziri həmin gün "Yerkrapah" təşkilatının qurultayında iştirak edəcəyini açıqlayıb və Qarabağa səfərdən imtinasını da bununla əsaslandırıb. "Joxovurd" nəşri yazır: "Paşinyan Qarabağa gəlməyəcək, yeni "Yerkrapah" təşkilatının qurultayında iştirak edəcək. Amma "Yerkrapah" təşkilatının qurultayını məhz aprelin 7-ə planlaşdırması heç də təsadüfi deyil. Paşinyan Qarabağda özünə getdikcə daha böyük təhlükə hiss edir. Bununla yanaşı, Respublika Partiyasının sədri Serj Sarksiyan da Qarabağa gəlmək barədə təklif alıb. Görünür, Sarksiyan da Paşinyana qarşı oyunların içindədir və baş nazir də bunu bilir"."İrates" qəzeti isə yazır ki, belə vəziyyətdə ciddi təhdidlər altında olan Nikol Paşinyanın öz komandasından da narazılığı artmağa başlayıb.

Məlumata görə, Paşinyanın komandasından narazılıq səbəblərindən biri də parlamentdə "Mənim Addımım" bloku üzvləri arasında yaranan gərginlikdir: "Bəzi dəyərləndirmələrə əsasən, Paşinyan hökuməti təkcə hər gün itirdiyi reytinq, iqtisadiyyatın çökməsi, investisiyaların yoxluğu ucbatından yox, həm də parlament ucbatından zəifləyir. Parlamentdə ciddi iş sayəsində hər dəqiqə yeni çoxluq formalaşdırmaq mümkündür. Bu iddialar son zamanlar Edmon Marukyan və erməni oliqarx Hagik Tsarukyanın yaxınlaşması şayiələrindən sonra daha da güclənib. Bu vəziyyətdə Paşinyan üçün zərbə təkcə Qarabağdan yox, həm də Ermənistan daxilindən gələ bilər. Baş nazir bunlara görə çox narahatdır". Qeyd edək ki, bundan öncə Ermənistan mətbuatı "Mənim Addımım" blokunun deputatları arasında fikir ayrılığının güclənməsi barədə məlumat yayıb. Mətbuat fikir ayrılığının, xüsusilə "Mülki Müqavilə" partiyasına üzv deputatlarla partiyaya üzv olmayan deputatlar arasında olduğunu bildirib. Narazılığa əsas səbəb partiya üzvü olmayan deputatların blok rəhbərliyi ilə hesablaşmaq istəməməsidir.

***Tahir TAĞIYEV***

**Əhalinin Ermənistandan köçməsi və çətin demoqrafik vəziyyət son illər erməni cəmiyyətində müzakirə olunan əsas mövzulardan biridir. Görünən odur ki, sözügedən məsələ ilbəil ölkədə daha da kəskinləşir. Hətta vəziyyət o dərəcə kəskinləşib ki, bu günlərdə Paşinyan hökuməti ölkədə demoqrafik vəziyyət və bu sahədə mövcud problemlərin həlli yolları ilə bağlı görüş keçirib.**

# Paşinyan yeni struktur yaratdı və ölkədəki demoqrafik fəlakəti tam etiraf etdi

## *Arzuxan Əlizadə: "Paşinyan olmur, kim olursa-olsun, bunu nizama sala bilməyəcək"*



*«Nə vaxta qədər ki, Ermənistan Azərbaycana yönəlik işğalçılıq siyasətinə son qoymayıb, bu ölkədə demoqrafik problemlər həll olunmayacaq»*

Hökumət səviyyəsində müzakirələr aparılıb. Müzakirələrdə ölkə rəsmiləri bununla bağlı hesabatlar veriblər. Bildirilib ki, 2017-ci ildə ölkəni tərk edənlərin sayı 26 min 897 nəfər olub. Erməni rəsmiləri iddia edirlər ki, 2017-ci illə müqayisədə 2018-ci ildə ölkəni tərk edənlərin sayı azalıb. Ancaq o da məlum olub ki, ötən il ərzində ölkədə doğumun azalması sürətlənib. Erməni rəsmilər özlərinə təsəlli vermək üçün bəyan ediblər ki, Ermənistandan Avropa İttifaqı ölkələrinə sığınacaq almaq məqsədilə müraciət edənlərin sayı azalıb. Erməni rəsmiləri ölkədəki demoqrafik vəziyyətin pisləşməsinin bəzi tərəflərini gizlətməyə çalışsalar da, məlum olub ki, bu sahədə ciddi problemlər var.

Hökumət rəsmilərindən fərqli olaraq, bir çox ekspert isə ölkədə demoqrafik vəziyyətin daha pis olduğu fikrindədir. Onların fikrincə, demoqrafik vəziyyətin təsvir olunduğu üç əsas sahədə ciddi problemlər var. Bunlar doğum səviyyəsinin azalması, əhalinin yaşlaşması və miqrasiyadır. Hər üç sahədə vəziyyət mənfidir. Xüsusən də ilbəil ölkədə doğulanların sayı azalır. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə ölkədə 41763 uşaq doğulub. 2018-ci ildə isə Ermənistanda doğulan uşaqların sayı 36502 nəfər olub.

Demoqraf Ruben Yeganyanın fikrincə, Ermənistanda doğumun azalması ilə bağlı hərtərəfli tədbirlər görülməyincə, azalma davam edəcək: "Hazırkı sosial-iqtisadi vəziyyətdə gənclər ailə qura bilməzlər. Ailə quranlar isə belə vəziyyətdə çox uşaq istəmirlər. Bu da əsas sosial problemlərdəndir".

Ölkədə vəziyyət o yerə gəlib çatıb ki, baş nazir Nikol Paşinyanın rəhbərliyi altında Ermənistanda Demoqrafik Vəziyyətin Yaxşılaşdırılması Şurası yaradılıb.

Maraqlıdır, sözügedən sahədə acınacaqlı vəziyyətin davam etməsi ölkəyə nə vəd edir? Paşinyanın bununla bağlı yaratdığı şura nəyisə dəyişə bilərmi?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Ermənistanda hökumət səviyyəsində bu sahədə müzakirələrin aparılması vəziyyətin olduqca kritik olmasından xəbər verir:** "Gör bu sahədə vəziyyət nə dərəcədə gərgindir ki, ölkənin baş naziri öz nəzarəti altında xüsusi şura yaradır. Hesab edirəm ki, bu müsbətə doğru nəyisə dəyişə bilməyəcək. Ermənistanda uzun illərdir demoqrafik sahədə ciddi problemlər var. Ermənistanda bu sahədə vəziyyətin pisləşməsi 1998-ci ilə qədər ölkə prezidenti olan Levon Ter-Petrosyanın dövründə başlayıb. "Qarabağ klanı" hakimiyyətə gələndən sonra bu sahədə vəziyyət daha da pisləşməyə doğru getdi. Əmək qabiliyyətli əhali kütləvi şəkildə ölkəni tərk etdi. Ölkədə yaşlı əhalinin sayı artdı və s. Ermənistan rəsmiləri ölkədə əhalinin 3 milyon nəfər olduğunu bəyan etsələr də, əslində, bununla bağlı çox ciddi şübhələr var. Yəni ölkədə əhalinin sayı bundan qat-qat azdır. Sadəcə, ölkə rəsmiləri bununla bağlı real rəqəmləri gizlədirlər. Ermənistanda demoqrafiya ilə bağlı problemlərin kökündə ölkədəki ağır sosial-iqtisadi vəziyyət dayanır. Bunun da səbəbi Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətidir. Bu səbəbdən Ermənistanın həmsərhəd olduğu 4 ölkədən 2-si ilə sərhədlər bağlıdır. Nə vaxta qədər ki, Ermənistan Azərbaycana yönəlik işğalçılıq siyasətinə son qoymayıb, bu ölkədə demoqrafik problemlər həll olunmayacaq. Paşinyan olmur, kim olursa-olsun, bunu nizama sala bilməyəcək. Ermənistanın hazırkı iqtisadi imkanları ölkədəki demoqrafik problemləri həll etmək iqtidarında deyil. Sözügedən problem o zaman öz həllini tapacaq ki, Ermənistan qonşularına qarşı ərazi iddialarından əl çəksin. Ölkələr arasında iqtisadi-ticarət əlaqələri qurulsun. Yoxsa hansısa inzibati vasitələrlə nəyəsə nail olmaq olmaz".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyan İlham Əliyevlə görüşdən qabaq cəsarətli danışırdı, görüşdən sonra cəsarət yoxa çıxdı

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın atdığı qətiyyətli addımlar qarşısında Ermənistanın uzun müddət davam gətirməsinin mümkünsüzlüyü indi işğalçı ölkənin özündə də açıq etiraf edilir. Xüsusən də hər iki ölkə liderinin Vyanada məlum görüşündən sonra bu xüsusda Ermənistanda daha böyük bədbinlik hökm sürməkdədir.**

Hazırkı durumda isə Ermənistanda baş nazir Nikol Paşinyan Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlardan məğlub qayıtmaqda ittiham olunur. Ermənilər bildirirlər ki, Paşinyan görüşdən əvvəl cəsarətli danışırdısa, görüşdən sonra bu cəsarət yoxa çıxdı.

Erməni ekspert Ruben Marqaryan "Ermənistanın səsi" qəzetində dərc olunan məqaləsində bu xüsusda Azərbaycanın ölkəsi üzərində diplomatik üstünlüyünün daha sürətlə artdığını vurğulayır: "Bizim baş nazirimiz əvvəlcə bu və ya digər məsələdə mövqeyini qəti şəkildə bildirir, lakin sonra bu qəti mövqe qəfil yoxa çıxır və prinsipial bəyanatların verilməsi vaxtı başqa mövzulardan danışır. Əliyevlə Vyanada keçirilən görüşdə də Paşinyan eyni formada davrandı. O, görüşdən əvvəl təntənəli sürətdə elan etdi ki, Vyanada ilk olaraq Dağlıq Qarabağ hakimiyyətinin bilavasitə danışıqlarda iştirakı məsələsini qaldıracaq, daha sonra Minsk Qrupu tərəfindən elan edilmiş üç əsas prinsip və nizama salmanın altı elementinin izahını tələb edəcək. Görüşdən öncə Paşinyan belə danışırdı, lakin görüş başa çatdı və heç kim Vyanada iki saat ərzində onun Əliyevlə nə danışdığını, əvvəldən elan etdiyi tələbləri səsləndirib səsləndirmədiyini bilmir. Lakin görüşdən sonra Minsk Qrupunun bəyanatından aydın olur ki, nə Qarabağın danışıqlarda iştirakı, nə də nizama salma elementləri ilə bağlı izahat tələbi səsləndirilib.

Paşinyan sadəcə bildirdi ki, "görüş normal keçdi". İlham Əliyev isə görüşdən sonra bəyan etdi ki, danışıqlar bundan sonra da ikitərəfli formatda davam edəcək, nizama salmanın əsas prinsiplərinə gəlincə, Bakının mövqeyi dəyişmədi, Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. Paşinyan bundan incidi, guya o, iki saat ərzində başqa şeydən danışıb, Əliyev başqa şey haqqında danışır. "Facebook"da canlı yayıma çıxan baş nazir bildirdi ki, "udmaq, yaxud uduzmaq haqqında danışmaq doğru deyil, bu yanaşma köhnəlib". O qeyd etdi ki, görüşdə Qarabağın danışıqlarda iştirakı məsələsi qaldırılıb, lakin heç bir nəticə verməyib. Amma bu məsələni bundan sonrakı görüşlərdə də qaldıracaq. Üç prinsip, altı element məsələsinə gəlincə, Paşinyan bunun böyük məsələ olduğunu, yalnız bir görüşdə müzakirə edilib həll olunmasının mümkünsüz olduğunu bəyan etdi. Hərçənd, o, görüşdən əvvəl başqa, görüşdən sonra isə başqa sözlər danışır və bu onun Vyanada məğlub olduğunu təsdiqləyir. Görünür, baş nazirimiz Əliyevi görən kimi qəti mövqeyini unudub".

Erməni mediası isə yazır ki, Vyana görüşündən sonra məğlub duruma düşən Ermənistan baş nazirini çətin vəziyyətə salan məqamlardan biri də Rusiya amili ilə bağlıdır. Belə ki, Rusiyanın İrəvan üzərindən dəstəyini çəkməsi fonunda "İravnuk" qəzeti yazır ki, İrəvan həm diplomatik, həm də hərbi müstəvidə Azərbaycana daha böyük fərqlə uduzmağa başlayır: "İrəvan Moskva ilə münasibətləri pisləşdirdiyi halda Bakı tamam fərqli prizmadan çıxış edir. Əvəzində Qarabağ məsələsində biz Kremlin Bakıya daha böyük dəstəyini görürük. Aydındır ki, belə vəziyyət danışıqlara da təsir edir və bu səbəbdəndir ki, Paşinyanın Vyana görüşündə heç nəyə nail olmadığına şahidlik edir. Əvəzində İlham Əliyev qəti şəkildə bildirdi ki, Qarabağ danışıqlarında format dəyişmir və bu da Azərbaycanın daha bir üstünlüyüdür".

Rus ekspert Stanislav Tarasov da vurğulayır ki, Moskvanın dəstəyini itirən Paşinyanın Azərbaycana məğlubiyyəti daha tez olacaq: "İndi prezident Vladimir Putin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə şəxsən məşğuldur". O qeyd edir ki, Vyana görüşündən sonra Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyevlə telefonda söhbət edib. Kremlin mətbuat xidmətindən verilən məlumata görə, tərəflər "Dağlıq Qarabağ üzrə danışıqların intensivləşməsinin vacibliyini vurğulayıb və Moskva "münaqişənin həllini təşviq etməyə hazır olduğunu ifadə edib", Xatırladaq ki, bundan öncə Putin və Paşinyan arasında oxşar telefon danışığı baş vermişdi. Söhbətlərin detalları ictimaiyyətə açıqlanmasa da, ümumiyyətlə, İlham Əliyev və Paşinyan arasında Vyanada keçirilən görüşdən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri ilə bağlı Moskva-Bakı-İrəvan üçbucağında telefon danışıqlarının intensivləşdirilməsi təsadüfi bir hal kimi qəbul edilmir. ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinin digər rəhbərlərindən fərqli olaraq, yalnız Rusiya prezidenti münaqişənin sülh yolu ilə həllinin tapılmasına yardım etmək üçün fəal şəkildə çalışır. Bu, həll prosesinin Moskvanın aktiv iştirakı ilə yeni mərhələyə girməsi kimi görünür. Baxmayaraq ki, onun konturları hələ görünmür".

Politoloq xatırladır ki, məhz Putinin şəxsi iştirakı ilə Dağlıq Qarabağda 2016-cı ilin aprel döyüşləri dayandırıldı. Cəbhə xəttində gərginliyi azaltmaq üçün Düşənbə şəhərində İlham Əliyevlə Paşinyan arasında şifahi razılaşmalara nail olmaqda vasitəçilik edən də elə Putin olub. Tarasov qeyd edir ki, həm birinci, həm də ikinci halla ATƏT Minsk Qrupunun heç bir əlaqəsi olmayıb: "Bəli, Minsk Qrupunun martın əvvəlindən münaqişə tərəfləri arasında "Madrid prinsipləri" əsasında danışıqlar aparmaq və müzakirələrin formatını dəyişməkdən imtina etməsi ilə bağlı Azərbaycan və Ermənistan liderləri arasında ATƏT-in Minsk Qrupunun mövqeyinin əsassız olmadığına dair bəyanatda, ATƏT Minsk Qrupu vasitəçi olub və olaraq da qalır. Görüləcək iş çox olsa da, hər şey Rusiya prezidentinə gedib çıxır. Maraqlıdır, niyə ilk gündən etibarən Əliyev Paşinyanla danışıqlara getdi? Bunu isə dekabr ayında baş tutan seçkilərdən əvvəl etdi. Hər şey Rusiya prezidentini göstərir. Üstəlik, ABŞ prezidenti Donald Tramp respublikaların yaranmasının 100-cü ildönümü münasibətilə Azərbaycan və Ermənistan prezidentlərinə müraciətində onlara "yaxın gələcəkdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün yeni imkanların ortaya çıxması" barədə xəbərdarlıq edib. Çoxları Vaşinqtonun Qarabağ istiqamətindəki siyasətini intensivləşdirməyi qərara aldığına əmin idi. Lakin Moskva bu məsələdə irəli atılmağa başladı. Görünür, Bakı və İrəvan Rusiyanı status-kvonun dəyişdirilməsi və sülhməramlı təşəbbüsləri həyata keçirmək üçün kifayət qədər siyasi iradəsi olan ən yaxşı vasitəçi hesab edir. Lakin reallıqda belə bir potensial vəziyyət əvvəllər də mövcud idi. Moskvanın bu istiqamətdə canlanması, ehtimal ki, Ukraynadakı hadisələrlə əlaqədardır". .

Tarasovun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi bir irəliləyişə nail olmaq arzusu var. Buna görə də, Putin Paşinyanı sakitcə dialoqa cəlb edir, müzakirələr üçün danışıqlar masasına oturtmağa çalışır: "Minsk Qrupunun vasitəçiliyi ilə, ya da ATƏT-in Minsk Qrupu olmadan Əliyev və Paşinyan arasında dialoqun nəticəsi olaraq hansı xüsusi formata nail olunacaqsa, hələlik bu günə qədər heç bir prinsipial əsası yoxdur. Ancaq Birləşmiş Ştatlar və Fransa həmsədr ölkələr kimi "Rusiyanın Qafqazda hegemonluğunun güclənməsinə" qarşı mübarizə bəhanəsilə mane olmaq istəyirlər. Hələlik, Moskva-Bakı-İrəvan üçbucağında bölgədəki münaqişənin hər iki tərəfinin milli maraqlarını ən yaxşı şəkildə yerinə yetirəcək sülhə nail olmaq üçün "yol xəritəsi" meydana çıxdığına dair sabit fikir var". Tarasov, dediyinə sübut olaraq, Amerikanın "The National Interest" nəşrinin məqalələrindən birini misal çəkir: "Bakı və İrəvan Moskva ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirməyə davam edir. Ancaq əvvəlcə Dağlıq Qarabağ münaqişəsini həll etmək lazımdır. Buna nail olanadək isə Rusiya prezidenti Moskvanın himayəsi altında əldə edilən Düşənbə razılaşmalarının hüquqi xarakter almasına çalışır".

Qeyd edilənlər fonunda Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın dedikləri də xüsusi diqqət çəkir. O bildirir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında tərəflərə yardım etmək Rusiyanın xarici siyasət konsepsiyasının vacib xarici siyasət prioritetlərindən biri sayılır: "Bu məqam həyata keçirilən vasitəçilik fəaliyyətinə xüsusi önəm verir, onun nəticələrinə diqqətin artırılmasını müəyyənləşdirir. ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkələri ilə sıx qarşılıqlı fəaliyyətdə çalışırıq. Dağlıq Qarabağ münaqişəsinin nizamlanmaması problemi ilə bağlı danışıqlar prosesi gedir. Tərəflər sülh yolu ilə nizamlanmaya nail olmağa istiqamətlənmiş işi davam etdirmək niyyətində olduqlarını nümayiş etdirir. Bu əhval-ruhiyyə İlham Əliyev və Nikol Paşinyanın az əvvəl Vyanada keçirilən görüşünün yekunlarına dair bəyanatda da qeyd olunub. Danışıqlarda əldə olunan konstruktiv yanaşmanı alqışlayırıq. Avstriya paytaxtında nail olunan ideyaların həyata keçirilməsi üçün tərəflərə lazımi yardımı edəcəyik". Ekspertlər bildirir ki, əslində, Rusiyanın prosesdə fəal iştirakı və İrəvana mümkün təzyiqləri münaqimşənin həllini tezləşdirə bilər. Hesab edilir ki, əslində, rəsmi Moskva Qarabağda dəstəyini Azərbaycanın lehinə istifadə etməyə məcburdur. Ən azı o baxımdan ki, regional mövqeyini itirməmək naminə Kreml Azərbaycanla əməkdaşlığın əhyati əhəmiyyət kəsb etdiyini yaxşı başa düşür. Bunun üçün isə Moskva Qarabağ məsələsində Azərbaycanın yanında yer almalı olduğunu da aydın görür. Belə vəziyyətdə Kremlin İrəvana azalan dəstəyi Qarabağ münaqişəsinin həllini əhəmiyyətli dərəcədə tezləşdirə bilər.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Soğan-kartof qıtlığı - kənd təsərrüfatı istehsalının planlaşdırılması pis vəziyyətdədir

*Nazirliyin Aqrar Tədqiqatlar Mərkəzinin müşavirinin izahı...*

**Son günlər Azərbaycan əhalisinin ən çox tələbatı olan kənd təsərrüfatı məhsulları soğan və kartofun qiymətinin kəskin bahalaşmasının səbəbləri daha aktiv müzakirə edilən mövzular sırasındadır. Bazarlarda deyilən məhsulların qiymətində yarıbayarı bahalaşma müşahidə olunur. Dünəndən isə bahalaşan məhsulların sırasına kələm də daxil olub.**

Kənd təsərrüfatı məhsullarının satıldığı bazar və mağazalarda apardığımız araşdırma zamanı bizə dedilər ki, bir müddət əvvəl 1 kiloqramı 70-80 qəpiyə satılan kələmin qiyməti indi 1 manat 40 qəpiklə 2 manat arasında dəyişir. Satıcılar qiymətlərin kəskin artmasını bir sıra səbəblərlə izah edirlər. Əsas səbəb bölgələrdə, xüsusən də Bərdədə kələmin azalmasıdır.

Azərbaycan kənd təsərrüfatı ölkəsidir. Vaxtilə bütün SSRİ məkanını meyvə-tərəvəzlə təmin edən ölkənin hazırda deyilən məhsullar sarıdan qıtlıq çəkməsi təəccüblü görünür. İlk olaraq bizi bu sual maraqlandırır ki, öz gücümüzə niyə daxili bazarın tələbatını qarşılaya bilmirik? Çünki bir çox məhsulun qiymətinin qalxmasına səbəb kimi Azərbaycana deyilən məhsulların idxalına qoyulan qadağa göstərilir. Deməli, bu nəticəyə gəlinir ki, bu məhsullarla bağlı biz idxaldan asılıyıq. Başqa bir səbəb kimi isə soğanın qiymətinin Türkiyədə baha olması səbəbindən kütləvi şəkildə ora daşınması göstərilir. İran rəsmiləri isə bəzi məhsullara qoyduqları qadağanın səbəbinin heç də sırf Azərbaycanla bağlı olmadığını deyirlər. Onların sözlərinə görə, İranda çox ucuz olan həmin məhsullar İraq və digər Yaxın Şərq ölkələrinə daşındığı üçün, daxili bazarı qorumaq məqsədilə belə addım atmağa məcbur olublar. İstənilən halda, əhalinin böyük hissəsi bu məsələdə günahı Kənd Təsərrüfatı Nazirliyində görür. Bu yöndə sosial şəbəkələrdə gedən müzakirələrdən görünür ki, kəndli və fermerlərə hansı məhsulun az və ya çox əkilməsi ilə bağlı tövsiyələr verilmir, həmin istiqamətdə maarifləndirmə aparılmır. Məsələn, kəndlilər və fermerlər qeyd edirlər ki, ötən il sarımsaq və noxud sarıdan ölkədə qıtlıq vardı. Həmin məhsulların qiyməti baha olduğundan, hamı sarımsaq və noxud əkməyə üstünlük verdi. Nəticəsi isə ağır oldu. Həmin məhsullar qalıb fermerlərin əlində.

Cəlilabad rayonundan olan fermer Elbruz Mirzəyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hazırda 15 tona yaxın noxudu sata bilmir: "Keçən il yerində 3 manata satılan noxudun kilosunu mən hazırda bir manata sata bilmirəm. Hətta bir manata satsam belə, maya dəyərini çıxarmayacaq". Belə vəziyyətə düşən kəndli və fermerlər həddən artıq çoxdur. Çox güman ki, soğan və kələmin qıtlığını görən kəndlilər kütləvi şəkildə həmin məhsulları əkməyə maraqlı olacaqlar. Əslində, daxili bazarda bunun nəticəsində yaranacaq bolluq bizi sevindirəcək, amma biz digər məhsulların qiymətində bahalaşmanı müşahidə edəcəyik. Təbii ki, bunun üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən düzgün planlama və proqnozlaşma işi aparılmalıdır. Real mənzərə isə onu deməyə əsas verir ki, məhz proqnozlaşdırma və planlama işinin zəif olması belə xaotiklik yaratmış olur.

Ümumiyyətlə, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən belə proqnozlaşdırma və



planlaşma aparılırmı?

Qurumun İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov "Bakı-Xəbər"ə bildirdi ki, bazardakı qiymətlərə nəzarət Prezidentin ötən il imzaladığı 1 iyul tarixli Fərmanla onlardan alınıb: "Bizim Aqrar Tədqiqatlar Mərkəzi bu istiqamətdə layihə həyata keçirir. Rayonların ixtisaslaşmasını nəzərdə tutan həmin layihə çərçivəsində ilkin pilot bölgə olaraq Dağlıq-Şirvan iqtisadi zonası seçilib. Artıq bununla bağlı ilkin araşdırmanın nəticəsini Nazirlər Kabinetinə təqdim etdik. Bunun da nəticəsində müəyyən tövsiyələr ortaya çıxmış oldu. Amma nəzərə almalıyıq ki, bu, planlı iqtisadiyyat deyil. Yəni biz kəndlini və ya fermeri direktiv şəklində məcbur edə bilmərik ki, onu yox, bunu ək. Liberal bazar üçün biz ancaq maarifləndirmə ilə buna nail ola bilərik. Yəni tövsiyə edə bilərik ki, xiyar əvəzinə badımcan ək və s. Sizin dediyiniz istiqamət üzrə Aqrar Tədqiqatlar Mərkəzi araşdırmalar aparır".

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin müşaviri Firdovsi Fikrətzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu istiqamətdə işlərin sürətləndirilməsi üçün onlar elektron məlumat bazası yaradır: "Bununda köməkliyi ilə biz hansı fermerin, hansı rayonda nə əkməsini biləcəyik. Əldə edəcəyimiz informasiyanın əsasında biz təhlillər aparacağıq. Həmin təhlillərin əsasında Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi, bazara tədarük intervensiyası edə biləcəyik. Bu praktika dünyanın bir çox aparıcı ölkəsi tərəfindən həyata keçirilir. Bizdə yeni ərsəyə gələn Strateji Yol Xəritəsində bu tələb var. Artıq bu istiqamətdə müzakirələr gedir ki, biz hansı formada bazara müdaxilə edə bilərik. Bunun da nəticəsində biz həm fermerlər, həm də əhali üçün stabil bazar yarada bilərik. İşimiz tam yekunlaşandan sonra bəzi qeyri-müəyyənliklər aradan qaldırılacaq".

Göründüyü kimi, Kənd Təsərrüfatı Nazirliyi bizim qeyd etdiyimiz işi hələ yenicə görməyə başlayıb. Hər halda, məhz bu cür gecikmənin nəticəsidir ki, bazarda xaotiklik müşahidə olunur.

***Məhəmmədəli QƏRİBLİ***

# Bank kreditləri əslində neçə faiz olmalıdır...

**Azərbaycanda kreditlərin faiz dərəcəsinin azalması təklif olunur. Belə bir təklifi Maliyyə Bazarlarına Nəzarət Palatasının nümayəndəsi Aytən Məmmədova Bakıda "Fitch Ratings" agentliyinin illik konfransında deyib. O qeyd edib ki, təklif hələ ki, müzakirə mərhələsindədir.**





***Rüfət Quliyev:** "Ölkədə kredit faizlərinin minimum məbləği 18, maksimum məbləği isə 22-24 faiz olacaq"*

***Elşad Məmmədov:** "Kredit faizləri kəskin şəkildə aşağı salınmalıdır"*

A.Məmmədova qeyd edib ki, kredit faizlərinin aşağı salınması ilə bağlı təklif qəbul olunarsa, kredit faizini və digər xərclərin həddini dövlət qurumu müəyyənləşdirəcək.

Qeyd edək ki, Azərbaycanda kredit faizləri əksər xarici ölkələrlə müqayisədə yüksəkdir. Məlumdur ki, ölkə başçısı İlham Əliyev fiziki şəxslərin problemli kreditlər məsələsinin həll olunması ilə bağlı sərəncam imzaladı. Sərəncama əsasən, fiziki şəxslərin problemli kreditlərlə bağlı yaşadığı çətinliklər öz həllini tapacaq.

Problemli kreditlərin həllindən sonra kredit faizlərinin aşağı salınması təklifi də gündəmə gətirilib. Ehtimal olunur ki, yaxın zamanlarda kredit faizləri aşağı salınacaq və bununla da hər kəs kredit götürə biləcək.

**Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Banklar haqqında" Qanuna dəyişikliyin edilməsi təklif olunur.** Təklif qəbul olunarsa, banklar vətəndaşlara yüksək faizlə kredit verə bilməyəcəklər: "Belə olduğu halda, kredit faizini və digər xərclərin həddini dövlət qurumu müəyyənləşdirəcək. Bu gün banklar çox yüksək faizlə kredit verir. Hətta bəzi banklar 36 faizlə kredit verir ki, bunun da geri qaytarılmasında əksər hallarda ciddi problemlər yaranır. Nəticədə isə problemli kreditlər ortaya çıxır. Məlumdur ki, problemli kreditlərin yaranması ölkə iqtisadiyyatına ziyan vurur".

Millət vəkilinin sözlərinə görə, kredit faizləri aşağı salınmalıdır. Onun fikrincə, ölkədə kredit faizlərinin minimum məbləği 18, maksimum məbləği isə 22-24 faiz olacaq.

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru, iqtisadçı Elşad Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, kredit faizləri kəskin şəkildə aşağı salınmalıdır.** Bunun həyata keçirilməsi üçün aidiyyəti qurumlarda müvafiq imkanlar mövcuddur. Kredit faizlərinin aşağı salınması üçün qurumlar tərəfindən iradə nümayiş etdirilməlidir: "Ölkədə həyata keçirilən pul krediti siyasəti yumşaldılmalıdır. Bunun həyata keçməsi üçün ilk növbədə Mərkəzi Bank uçot dərəcəsini aşağı endirməlidir. Eyni zamanda, pul krediti siyasətində hökumət və Mərkəzi Bank tərəfindən yalnız faiz göstəricisi üzrə deyil, faiz siyasətinin differensiallaşdırılmasına getmək lazımdır. Hər bir sahə üzrə kreditləşmə həyata keçirilməlidir. Əks halda, real sektorun rəqabətqabiliyyətli formatda inkişafına nail ola bilmərik. Ona görə bu, ölkə iqtisadiyyatı üçün önəmlidir. Hesab edirəm ki, həm Maliyyə Bazarlarına Nəzarət Palatası, həm də Mərkəzi Bankın bütün imkanları var".

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, son illər Bakının nəqliyyat infrastrukturunun modernləşdirilməsi ilə bağlı bir sıra işlər görülüb. Marşrutlar yenilənib, avtobuslarda kart sisteminə keçilib. Bir sıra avtobuslar kart sistemi ilə işləyir. Həmçinin, köhnə və istifadəyə yararsız avtobuslar yeniləri ilə əvəzlənib.**

*"Məhdud istifadə üçün nəzərdə tutulan kartlardan 20 qəpik silinirsə, bu, xoşagələn hal deyil və müvafiq qurumlar buna aydınlıq gətirməlidirlər"*

## Böyük narazılıq doğurmuş problemi agentlik sükutla qarşıladı

# Bakı Nəqliyyat Agentliyinin 1 manatlıq kartları sərnişindən 20 qəpiyini xəbərsiz oğurlayır...

***Azər Allahverənov:*** *"Belə hallarla bir neçə dəfə rastlaşmışıq və bizə bununla bağlı müraciətlər də olub"*

Ancaq bütün bunlara baxmayaraq, bu sahədə bir sıra problemlər var. Bu arada paytaxt nəqliyyatında sakinləri narahat edən məsələlərdən biri də kart sistemi ilə bağlıdır. Məsələ ondadır ki, sərnişinlərin istifadəsi üçün 2 cür kart var. Bunlardan biri daimidir. Hansı ki, sərnişin 2 manat verib kart alır və karta istədiyi həcmdə gedişhaqqı yükləyir. İkinci kart isə kağızdan olur və məhdud istifadə üçün nəzərdə tutulur. Adətən rayondan Bakıya gələnlər müvəqqəti olaraq belə kartlardan istifadə edirlər. Bu məhdud kartların qiyməti 20 qəpik təşkil edir.

Ancaq məlumata görə, sözügedən kartlardan pul oğurlanır. Problem ondadır ki, vətəndaş 1 manatlıq əskinası terminala daxil edib məhdud kart aldıqda, bunun yalnız 60 qəpiyindən istifadə edə bilir. 20 qəpik kartın qiymətinə çıxıldıqda isə kartda qalan digər 20 qəpik itir. Yəni sərnişin heç bir halda bu 20 qəpiyi geri ala və yaxud karta yükləyə bilmir. Çünki məhdud istifadə üçün nəzərdə tutulan kartlara sonradan ödəniş etmək mümkün deyil. Ona görə ki, sözügedən aparatların qalıq verməki funksiyası yoxdur. Nəticədə 1 manatla ödəniş etdikdə bu kartlar 20 deyil, 40 qəpiyə başa gəlir. O baxımdan, yaranan belə vəziyyət bir sıra sərnişinlərin narazılığına səbəb olub.

Sözügedən problemlə əlaqədar Bakı Nəqliyyat Agentliyi ilə bir neçə dəfə əlaqə saxlamağa çalışsaq da, təəssüflər olsun ki, edilən zənglərə qurumdan cavab verən olmadı.

**Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, bu problemin özü kifayət qədər aktualdır:** "İlk baxışdan 20 qəpik az məbləğ kimi görünə bilər, amma bunu sərnişinlərin sayına vuranda böyük rəqəm alınır. Vaxtilə gedişhaqqı 20 qəpik olanda bu kartlar dövriyyəyə buraxılmışdı. O vaxt hesab belə götürülmüşdü ki, 1 manat yükləməklə vətəndaş 4 gediş edə bilər. Yerdə qalan 20 qəpik isə kartın qiymətinə çıxılacaq. İndi isə gedişhaqqı dəyişib. Kartla işləyən avtobuslarda gedişhaqqı 30-35 qəpikdir. Məhdud istifadə üçün nəzərdə tutulan kartlardan 20 qəpik silinirsə, bu, xoşagələn hal deyil və müvafiq qurumlar buna aydınlıq gətirməlidirlər. Digər tərəfdən, ödənişi qəpiklərlə aparmaq mümkün olsa, bu varianta keçmək lazımdır. Yəni ödəniş birbaşa olaraq qəpiklərlə aparılsın. Onu da qeyd edim ki, belə hallarla bir neçə dəfə rastlaşmışıq və bizə bununla bağlı müraciətlər də olub. Hesab edirəm ki, belə hallarla rastlaşanlar aktiv olmalıdırlar. Belə halla üzləşdikdə aidiyyəti qurumlara müraciət




etməlidirlər. Fikrimcə, bununla bağlı müraciətlər çox olsa, aidiyyəti qurumlar hərəkətə keçəcəklər. Adətən belə kartlardan müvəqqəti olaraq Bakıya gələnlər istifadə edir. Ola bilsin ki, bundan sonra həmin şəxslər belə kartlardan istifadə etməsinlər. Bu isə yanlış yanaşmadır. Fikrimcə, sözügedən məsələ geniş işıqlandırılsa, müvafiq qurumlar tədbir görəcəklər". Mövzunu davam etdirəcəyik.

***Vidadi ORDAHALLI***

**Dünən bir sıra KİV-lərdə Bakının Xəzər rayonunda yerləşən 2 saylı Cəzaçəkmə Müəssisəsində dustaqlar arasında kütləvi davanın düşməsi barədə məlumat yayılıb. Bildirilir ki, dava zamanı dustaqlar Sərvan Ramazanov, Elməddin Nəcəfov, Samir Məmmədov, Vüqar Şirinov, Ayəddin Şahbazov və Vüsal Allahverdiyev xəsarət alıblar.**

# 2 saylı türmədə kütləvi dava deyilən hadisədə nə baş verib...



Faktla bağlı araşdırma aparılır.

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti 2 saylı Cəzaçəkmə Müəssisəsində baş vermiş hadisə ilə bağlı yayılan məlumatlara dərhal münasibət bildirib. Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Mehman Sadıqov açıqlamasında bildirib ki, hadisə mart ayının əvvəlində baş verib: "2 saylı Cəzaçəkmə Müəssisəsində 6 nəfər yox, 3 nəfər məhkum arasında məişət zəminində münaqişə baş verib. Həmin şəxslər müəssisə rəhbərinin qərarı ilə cərimə təcridxanasına keçirilib. Hadisə nəticəsində xəsarət alanların olması və xəstəxanaya yerləşdirilməsi barədə yayılan məlumatlar əsassızdır".

Göründüyü kimi, rəsmi qurum tərəfindən də davanın olduğu təsdiqlənir, amma motivi barədə heç bir açıqlama verilmir. Bu yaxınlarda 2 saylı Cəzaçəkmə Müəssisəsindən azadlığa buraxılan, lakin adının çəkilməsini istəməyən məhkumlardan biri bizimlə söhbətində adları davada çəkilən şəxsləri kriminal aləmin qanunları ilə yaşamağa meylli olan şəxslər kimi xarakterizə edib. Onun sözlərinə görə, bu, vaxtilə yığılıb qalmış kriminal münasibətlərin aydınlaşdırılması fonunda baş verə bilər: "Sadəcə, hazırkı məqamda belə münasibətləri aydınlaşdırmaq üçün münbit şərait yetişib. Çünki müəssisənin köhnə rəisi, polkovnik Fikrət Qafarov mart ayının əvvəlində 10 saylı Cəzaçəkmə Müəssisəsinə rəis təyin edilib. Onun vaxtında "zon"da nizam-intizam yüksək səviyyədə olub. Kriminala meylli insanlar isə, ümumiyyətlə, səslərini çıxara bilmirdilər. Görünür, yeni rəisin vəziyyəti tam öyrənməsindən istifadə edib, belə kütləvi dava salıblar".

Qeyd edək ki, Fikrət Qafarov Penitensiar Xidmətin ən təcrübəli və kriminal aləmə qarşı barışmaz mövqe tutan rəislərindən sayılır. Azərbaycanda kriminal meyllərin, "obşaq qanunları"nın cücərmək istədiyi bütün cəzaçəkmə müəssisələrinin nizama salınmasında həmin rəisin böyük xidmətləri olub. Hətta onun barəsində krimianl aləmdə belə əfsanələr dolaşır. Deyirlər ki, daim kriminal qanunlarla idarə olunan, "qara zon" adını daşıyan 1 saylı Cəzaçəkmə Müəssisəsində "obşaq" qurumunu ləğv etmək kimi cəsarətə o sahib olub. Yəqin ki, onun ab-havasının yoxluğunu görən bəzi kriminal elementlər baş qaldırmaq istəyib ki, 2 saylı "zon" da belə dava meydana çıxıb.

***Məhəmmədəli QƏRİBLİ***

# Məcburi sığorta ödənişlərinə nəzarətin Vergilər Nazirliyinə verilməsinin ilk üç ayına yekun vuruldu

*"Nə əldə etdik" sualına Vergilər Nazirliyinin İqtisadi təhlil Departamentinin Sosial sığorta ödənişlərinə nəzarət və təhlil idarəsinin direktoru Nigar Vahabzadə cavab verib...*



**- Nigar xanım, artıq bu ildən başlayaraq sosial sığorta haqları ilə bağlı yığımlar Vergilər Nazirliyi tərəfindən həyata keçirilir. Yığımlara nəzarət funksiyasının Vergilər Nazirliyi tərəfindən aparılması bu sahə üçün nəyi dəyişib?**

- Cari ildən etibarən sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət Azərbaycan Respublikasının Vergilər Nazirliyinə həvalə edilib. Məqsəd sığortaedən və sığortaolunan arasında əmək münasibətlərinin qanunauyğun tənzimlənməsi, əmək haqlarının şəffaflaşdırılması, sosial sığorta ödənişlərinin düzgün, vaxtında toplanması və bu sahədə inzibatçılığın təkmilləşdirilməsidir. Artıq vergi ödəyicinə nəzarət bir orqan tərəfindən həyata keçirilir.

Cari ilin 1-ci rübü üzrə məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqları üzrə daxilolmalardakı artım bu sahədə aparılan dəyişikliklərin müsbət nümunəsidir. Dəyişiklik Vergilər Nazirliyinin fəaliyyətinin əsas hədəflərindən biri olan kölgə iqtisadiyyatının azaldılması məqsədinə xidmət göstərəcək. Həmçinin, Qanunla təsbit edilən dəyişikliklərə əsasən sosial sığorta ödənişlərindəki məbləğ dəyişməsə də, ödəyicilər arasında faiz nisbəti yeni bölgüdə müəyyənləşib. Belə ki, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən sığortaolunanların muzdlu işdən sığorta haqqına cəlb edilən aylıq gəlirlərindən məcburi dövlət sosial sığorta haqqı 2019-cu il yanvarın 1-dən 7 il müddətində 200 manatadək olduqda məcburi dövlət sosial sığorta haqqı sığortaolunanın gəlirindən 3 faiz, sığortaedənin vəsaitindən 22 faiz, 200 manatdan çox olduqda isə sığortaolunanın gəlirlərindən 6 manat + 200 manatdan çox olan hissənin 10 faizi, sığortaedənin vəsaitindən isə 44 manat + 200 manatdan çox olan hissəsinin 15 faizi üzrə tutulur. Məsələn, əmək müqaviləsi ilə işləyən vətəndaş 650 manat əmək haqqı alırsa, o gəlir vergisi ödəmir. Vətəndaşın məcburi dövlət sosial sığortasına cəlb olunmayan gəlirləri olmadığı halda, 650 manatın 200 manat hissəsi üçün 3 faiz sosial sığorta haqqı əmək haqqından tutularaq ödənilir. Bu zaman müəssisə tərəfindən 22 faiz sosial sığorta haqqı ödəyir. Əmək haqqının qalan 450 manatı üçün vətəndaşın əmək haqqından tutularaq 10 faiz, müəssisə isə 15 faiz sosial sığorta haqqı ödəyir. Eyni zamanda, 650 manatın 0,5 faizi vətəndaşın əmək haqqından tutularaq işsizlikdən sığorta haqqı müəssisə tərəfindən ödənilir. Bu zaman müəssisə 650 manatın 0,5 faizi miqdarında işsizlikdən sığorta haqqı ödəyir.

**- Cari ildən etibarən mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin məcburi dövlət sosial sığortasının məqsədləri üçün uçotunun aparılması vergi siyasətində bir yenilikdir. Bu barədə məlumat verərdiniz.**

- Doğru qeyd edirsiniz ki, cari ildən "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliyə əsasən mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin məcburi dövlət sosial sığortasının məqsədləri üçün uçota alınması Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilir.

Bununla bağlı mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər Azərbaycan Respublikasının Vergilər Nazirliyində qeydiyyata alındıqdan, yəni VÖEN verildikdən sonra, həmin məlumatlara əsasən sığortaedənlərə avtomatik sığortaedənin uçot nömrəsi (SUN) verilir.

Torpaq mülkiyyətçisi sığortaedən kimi qeydiyyata alınmaq məqsədilə müraciət edən zaman fiziki şəxsin uçota alınma meyarını "Torpaq mülkiyyətçisi" kimi qeyd etməlidir. Qeydiyyat zamanı torpaq mülkiyyətçisinin və onun ailə üzvlərinin, o cümlədən torpağa mülkiyyət hüququnu təsdiq edən sənəd haqqında məlumatlarını tam və dəqiq doldurmalıdır. Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxs (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) əmək qabiliyyətli (I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla), 15 yaşından "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) ölkə üzrə müəyyən olunmuş minimum aylıq əmək haqqının 6 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı üzrə ödəniş etməlidir.

**- Artıq 2019-cu ilin 1-ci rübü yekunlaşıb. Sosial sığorta hesabatlarının yeni formaları istifadəyə verilib. Bilmək istərdik ki, hesabat formalarında nələr dəyişib?**

- Vergilər Nazirliyi tərəfindən "Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat"ın və "İşsizlik sığortası üzrə rüblük hesabat"ın yeni formaları, onların tərtib edilməsi qaydaları təsdiq edilib. 2019-cu il və sonrakı dövrlər üzrə həmin hesabatlarda bəzi dəyişikliklər olunub.

Hesabat təqdim edilən zaman vergi ödəyicisinin bir sıra məlumatları hesabatda əks etdirməsi vacibdir. Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən hər bir sığortaolunanın muzdlu işdən sığorta haqqına cəlb edilən aylıq gəlirlərindən məcburi dövlət sosial sığorta haqqı üzrə yeni bölgüdə tutulmalar göstərilməlidir.

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsinə əsasən, bu Qanunun məqsədləri üçün sığortaolunanın sığorta stajı bu Qanun qüvvəyə mindikdən sonra sığorta haqqı ödənilən müddətə görə hesablandığı üçün "İşsizlik sığortası üzrə rüblük hesabat"ın formasına rüb ərzində əmək haqqı və gəlir hesablanmış, eləcə də hesabına işsizlikdən sığorta haqqı ödənilmiş sığortaolunanlar (işçilər) barədə məlumatlar əlavə edilməlidir.

"Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat"ı və "İşsizlik sığortası üzrə rüblük hesabat"ı həm kağız, həm də elektron qaydada təqdim etmək mümkündür. Hesabatlarla bağlı məlumat əldə etmək üçün vergi ödəyiciləri Nazirliyin xidmət mərkəzlərinə və 195 çağrı Mərkəzinə müraciət edə bilərlər.

**- Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabatı vaxtında təqdim etməyən sahibkarları hansı cərimələr gözləyir?**

- 2019-cu ilədək sığortaedənlərin məcburi dövlət sosial sığortası üzrə hesabatı vaxtında təqdim etməməsinə görə hesabat dövrü üçün hesablanmış sosial sığorta haqqının 10 faizi məbləğində maliyyə sanksiyası tətbiq olunurdu və bu halda qanunda heç bir istisnaların nəzərdə tutulmadığı üçün hər hansı texniki və ya sair səbəbdən vaxtında hesabat verməyən sığortaedənə də böyük cərimələr tətbiq olunurdu ki, nəticədə sahibkara zərər dəyirdi.

Vergi Məcəlləsinə edilmiş yeni dəyişikliklərə əsasən, vergitutmanın ümumi əsasları, vergilərin ödənilməsi qaydaları (ödənilməsi mənbələri istisna olmaqla), vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları ilə bağlı müddəaları məcburi dövlət sosial sığorta haqqı və işsizlikdən sığorta haqqına münasibətdə də tətbiq olunur.

Hazırda qanunvericiliyin bu tələbinə əsasən sosial sığorta hesabatlarını əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**- 2018-ci ilin 4-cü rübün nəticələri üzrə hesabatlar təqdim edilərkən şəxsi hesab vərəqələrində qeydlərin aparılması ilə bağlı müəyyən çətinliklər yaranmışdı. Hazırda bu istiqamətdə işlər nə yerdədir?**

- Vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini qorumaq Vergilər Nazirliyinin fəaliyyətində ən başlıca prinsipdir və bu tip problemlərin gələcəkdə də yaranmaması üçün optimallaşdırma tədbirləri aparılmaqdadır. Vergi ödəyiciləri tərəfindən məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqları üzrə 2018-ci ilin 4-cü rübün hesabatları da Vergilər Nazirliyinə təqdim edilib. Lakin, həmin dövr üzrə hesabatların təqdim edilməsi zamanı vergi ödəyicilərinin sosial sığorta üzrə məlumatları Vergilər Nazirliyinin proqram təminatına inteqrasiya olunaraq uyğunlaşdırılması prosesi davam etdirilirdi. Bu səbəbdən şəxsi hesab vərəqələrində yaranmış texniki uyğunsuzluqlar Vergilər Nazirliyi tərəfindən aparılmış tədbirlər nəticəsində qısa zamanda aradan qaldırılıb. Bununla yanaşı, artıq vergi ödəyicilərinin həm vergi, həm də sosial sığorta üzrə ödənişləri, borc öhdəlikləri və digər məlumatlar şəxsi hesab vərəqələrində əks olunur.

**- Gələcəkdə hesabatların daha da təkmilləşdirilməsi və ya hansısa yeniliklər gözlənilirmi?**

- Hazırda məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə Vergilər Nazirliyi tərəfindən hesabat formalarının daha da optimallaşdırılması və gələcəkdə daha da təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər nəzərdə tutulub. Yaxın gələcəkdə hesabatların modifikasiya olunaraq vahid formada verilməsi və daha da sadələşdirilməsi istiqamətində işlər aparılır.

***Baki-xeber.com***

# Mirzə Cəlil irsini təftiş edənlərə qarşı məşhur cəlilşünasların da səsi eşidilməyə başladı

**Bir aydan çoxdur Cəlil Məmmədquluzadə (Mirzə Cəlil ) mövzusu mətbuatın gündəmindən düşmür. Bir neçə yazar iddia edir ki, Mirzə Cəlilin bəzi əsərləri plagiatdır və onun bir neçə hekayəsində ermənilər "müsbət" planda verilib.**



## *Vaqif Yusifli: "Mirzə Cəlil irsini təftiş edənlər qeyri-peşəkarlardır"*

Bu iddiada olanlar hesab edirlər ki, Mirzə Cəlilin əsərləri yenidən redaktəyə cəlb edilməli və bəzi əsərləri isə, ümumiyyətlə, dərsliklərdən çıxarılmalıdır. Mirzə Cəlilin yaradıcılığını, şəxsiyyətini təftiş edənlərin hansı məqsəd güddüyü aydın deyil. Onlara opponentlik edənlər isə onların fikirlərinə qarşı çıxırlar. Məsələ burasındadır ki, bu müzakirələrə yalnız tanınmış media təmsilçiləri, bəzi yazarlar və tədqiqat obyekti C.Məmmədquluzadənin yaradıcılığı olmayan ədəbiyyatşünaslar, dilçilər qoşulublar. Lakin Mirzə Cəlil irsini araşdıranlar, cəlilşünaslar isə, nədənsə, bu müzakirələrə qoşulmağa həvəs göstərmirlər. Sanki heç uzun illərdir Mirzə Cəlil irsini araşdıranlar, təbliğ edənlər, onun yaradıcılığı haqqında cild-cild kitablar yazanlar bu alimlər deyil. Halbuki, onlar Mirzə Cəlil yaradıcılığı üzrə alimlik dərəcəsi, elmlər namizədi, elmlər doktoru adları alıblar.

C.Məmmədquluzadə ilə bağlı açılan müzakirələrə cəlilşünaslar nə üçün qoşulmurlar?

*"Günəş, Ay göydə necə görünürsə, Cəlil Məmmədquluzadə də ədəbiyyatımızda o şəkildə görünür"*

**Tanınmış tənqidçi, ədəbiyyatşünas-alim Vaqif Yusifli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, C.Məmmədquluzadənin yaradıcılığını təftiş edənlər qeyri-peşəkarlardır.** "Cəlil Məmmədquluzadə milli ədəbiyyatımızın nəhənglərindən biridir. Onun irsinin, yazdıqlarının, hekayələrinin təftiş edilməsi, bu şəkildə müzakirəyə çıxarılması qəbuledilməzdir. Mirzə Cəlil irsini təftiş edənlər, onu müxtəlif məsələlərdə ittiham edənlər qeyri-peşəkarlardır. Onların Mirzə Cəlil irsinə yanaşmaları qeyri-peşəkar yanaşmadır.

**Əlbəttə, bu müzakirələrə C.Məmmədquluzadə irsini araşdıranlar da qatılmalıdırlar. Bilirsiniz, Günəş, Ay göydə necə görünürsə, C.Məmmədquluzadə də ədəbiyyatımızda o şəkildə görünür" - deyə V.Yusifli qeyd etdi.**

***İradə SARIYEVA***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ATAKİŞİYEV**



**DAŞQIN İMAD oğlu**

31 avqust 1974-cü ildə Azərbaycan Respublikasının Oğuz rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Oğuz rayonunun Xaçmaz kəndində yaşamışdır. Oğuz RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Atakişiyev Daşqın İmad oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 18 may 1993-cü ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Atakişiyev Daşqın İmad oğlu 18 may 1993-cü il tarixində Laçın rayonunun Təzəkənd kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Atakişiyev Daşqın İmad oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ATAKİŞİYEV SABİR ŞAMƏMMƏD oğlu**



25 fevral 1972-ci ildə Azərbaycan Respublikasının Zəngilan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Zəngilan rayonunun Zərnəli kəndində yaşamışdır. Zəngilan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Atakişiyev Sabir Şaməmməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 10 dekabr 1992-ci ildə Zəngilan rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Atakişiyev Sabir Şaməmməd oğlu 10 dekabr 1992-ci il tarixində Zəngilan rayonunun Ağkənd kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Atakişiyev Sabir Şaməmməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ATAMOĞLANOV ƏBÜLFƏT SABİR oğlu**



4 iyul 1967-ci ildə Azərbaycan Respublikasının Salyan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Salyan rayonunun Kürsəngi kəndində yaşamışdır. Salyan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Atamoğlanov Əbülfət Sabir oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 31 avqust 1993-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Atamoğlanov Əbülfət Sabir oğlu 31 avqust 1993-cü il tarixində Füzuli rayonunun Kürdmahmudlu kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Atamoğlanov Əbülfət Sabir oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ATAYEV ATAKİŞİ QƏHRƏMAN oğlu**

2 oktyabr 1960-cı ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Binəqədi rayonunda yaşamışdır. Binəqədi RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Atayev Atakişi Qəhrəman oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəs-



təklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 27 iyun 1992-ci ildə Xocalı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Atayev Atakişi Qəhrəman oğlu 27 iyun 1992-ci il tarixində Xocalı rayonunun Naxçıvanlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Atayev Atakişi Qəhrəman oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Milli Akademiyanın iki institutu arasında quş adlarına görə problem yarandı

## AMEA-nın Dilçilik İnstitutu Zoologiya İnstitutunun quşların adlarını dəyişdirməklə bağlı təklifini təxribat adlandırıb

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Zoologiya İnstitutunun Elmi Şurasının aprelin 3-də keçirilən iclasında bəzi quş növlərinin yerli adları müzakirə edilib. Müzakirəyə çıxarılan 140 növün adları arasından 20 quş növünün yerli adları ornitoloqların təklifi ilə dəyişdirilib.**

Qərara əsasən, maygülü - batağan, böyük qartalça və ya çığırğan qartalça - böyük xallı qartal, ördəktutan qızılquş - sərçəçalan, cek və ya gözəl cek - gözəl dovdaq, qəşəng durna - telli durna, trinqa - otluq cüllütü, bekas - meşə cüllütü, sterna - sümrü, adi sitta - adi fitçi, qırmızıqanad tixodrom - qırmızıqanad qaya quşu, kölgəlik yarpaqgüdəni - sin-sin yarpaqgüdəni, ilanboyun - adi buruqboyun, alacəhrə - alaçöhrə, toğlugötürən - saqqallı kərkəs, leşyeyən qartal - leşyeyən ağkərkəs, sultan toyuğu - sultan quşu, torağay - turağay, sarıdimdik qarğa - sarıdimdik dolaşa, tuvik - tüviy, anqut - qırmızı ördək adlandırılıb.

Zoologiya İnstitutunun Azərbaycanda yerli quşların adlarının dəyişdirilməsi ilə bağlı gündəmə gətirdiyi ideya AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun narazılığına səbəb olub. Quşların adlarının dəyişdirilməsi məsələsi iki institut arasında qalmaqala və fikir ayrılığına gətirib çıxarıb. Son zamanlar ana dilinin qaydalarını pozanlara qarşı sərt tədbirlər görülməli olduğu təklifi ilə çıxış edən Dilçilik İnstitutu Zoologiya İnstitutunun müzakirəyə çıxardığı məsələyə də müsbət yanaşmır.

Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylu mətbuata açıqlamasında quşların adının dəyişdirilməsini təxribat hesab edib. "Dilçilik İnstitutu quşların adlarının dəyişdirilməsi ilə bağlı təklif verməyib, bu təxribatdır"- deyə bildirən M.Nağısoylu, həmçinin, qeyd edib ki, AMEA Zoologiya İnstitutunun Elmi Şurası dəyişikliklər barədə Dilçilik İnstitutunu məlumatlandırmayıb.

AMEA-nın Dilçilik İnstitutu Terminologiya şöbəsinin müdiri Sayalı Sadıqova da, öz növbəsində, dəyişikliyi təxribat adlandırıb: "Onların bizə demədən belə bir dəyişiklik etməsi yolverilməzdir. Quşların adı dəyişdirilə bilməz. Biz Zoologiya İnstitutu ilə əlaqə saxlayacağıq".

Zoologiya İnstitutunun quşların adlarının dəyişdirilməsi ilə bağlı gündəmə gətirdiyi təklifin ciddi qalmaqal yaratması maraq doğurur.

Zoologiya İnstitutunun direktor müavini, biologiya üzrə elmlər doktoru, professor Elşad Əhmədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, heç bir quşun adı dəyişdirilməyib və buna görə də mövzu ətrafında ajiotaj yaradılması düzgün deyil. Zoologiya İnstitutunun Elmi Şurasında bu yalnız təklif kimi səsləndirilib. "Hələ heç bir quşun adı dəyişdirilməyib. Bu məsələ sadəcə institutun Elmi Şurasında müzakirə olunur və müzakirələrdən sonra təklifimiz müvafiq instansiyalara göndəriləcək, onlar da baxıb öz fikirlərini bildirəcəklər. "Quşların adları dəyişdirildi" kimi fikirlər səsləndirmək və bunun ətrafında ajiotaj yaratmaq düzgün deyil".



"Quşların adlarının dəyişdirilməsinin səbəbi nədir" - deyə E.Əhmədovdan soruşduqda o bildirdi ki, bəzi quşların adlarının dəyişdirilməsinə ehtiyac var. "Elələri var köhnə adlardır, elələri də var yeni adlardır. Ümumi qərara gəlib onlara adlar veriləcək, ancaq burada bütün quşların adlarının dəyişdirilməsindən söhbət getmir. O vaxtlar bəzi quşlar növlərinə görə düzgün adlandırılmayıb. Biz onların xüsusiyyətlərinə baxıb adlarını yeniləmək istəyirik. Bizim institutun qəbul etdiyi qərar müəyyən institutlara göndəriləcək və ümumi rəyə gələcək. Zoologiya İnstitutu quşların adlarının dəyişdirilməsini hələ bir təklif kimi irəli sürüb" - deyə E.Əhmədov vurğuladı.

*İradə SARIYEVA*

# Sığorta edilməyən əmlaka görə cəzanı sərtləşdirmək?...

**Gündəlik olaraq Bakıda, yaxud da regionlarda kiminsə evinin, əmlakının bu və ya digər səbəblərdən qismən və ya tamamilə yanması ilə bağlı xoşagəlməz xəbərlər eşidirik. Mülk sahibləri evlərinə dəymiş ziyanı dilə gətirsələr də, heç bir yerə müraciət edə bilmirlər.**

## ”...cərimələr tətbiq olunmalıdır”

Çünki ölkədə əhalinin əmlakı sığorta etməyə həvəsi yoxdur.

Bu günlərdə "Diqlas" ticarət mərkəzinin tam şəkildə yanması əmlakın icbari şəkildə sığortalanması məsələsini yenidən gündəmə gətirdi. Əmlakını icbari qaydada sığortalamayan şəxslərə qarşı tətbiq olunan cərimələrin sərtləşdirilməsi təklif olunur.

Qeyd edək ki, ölkədə 2011-ci il iyunun 24-də "İcbari sığortalar haqqında" Qanun qəbul edilib. 2012-ci il yanvarın 1-dən tətbiqinə başlanan qanun hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, eləcə də avtomobillərin icbari qaydada sığortalanmasını nəzərdə tutur.

Buna baxmayaraq, vətəndaşlar hələ də əmlakını sığorta etdirməkdə maraqlı deyillər. Faciə baş verən anda sığorta söhbəti yada düşür. Bu lap "xəstəlik ağırlaşanda, həkim yada düşür" deyiminə bənzəyir. Gərək xoşagəlməz hadisə baş versin ki, insanların yadına sığorta düşsün.

İcbari Sığorta Bürosunun İdarə Heyətinin sədri Rəşad Əhmədov media nümayəndələrinə açıqlamasında bildirib ki, əmlakını icbari qaydada sığortalamayan şəxslərə qarşı tətbiq olunan cərimələr sərtləşdiriləcək. Bununla bağlı qanunvericilikdə mövcud olan boşluqlar aradan qaldırılacaq: "Məbləğ yüksək olmadığından müsbət nəticə vermir. Əmlak sığortası sahibkarları bir çox zərərlərdən qoruduğu üçün çox sərfəlidir".



**Məsələ ilə bağlı fikir bildirən sığorta eksperti Nicat Əlibəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 2012-ci ildən etibarən daşınmaz əmlakın sığortası icbaridir.** Avtomobilə nisbətdə əmlak sığortası elə də məşhur deyil: "Məlumdur ki, avtomobillərdə Dövlət Yol Polisi tərəfindən quraşdırılan MMK-ların sayı nəticəsində vətəndaşların icbari sığortası olmadığı təqdirdə 50 manat cərimə olunur. Lakin əmlak sahəsində belə bir mexanizm yoxdur. Daşınmaz əmlakın icbari sığortasını hansısa qurum öz öhdəsinə götürüb nəzarətdə saxlasın".

## Nicat Əlibəyli: ”Daşınmaz əmlakın sığortası sahəsində maarifləndirmə zəifdir”




N.Əlibəylinin fikrincə, daşınmaz əmlakın sığortası sahəsində maarifləndirmə zəifdir: "Təəssüfedici haldır ki, bədbəxt hadisə baş verən an əmlak sığortası yada düşür. Faciələrdən zərərsiz çıxmaq üçün əmlakın sığorta olunmaması ilə bağlı cərimələr tətbiq olunmalıdır. Nəzərə almaq lazımdır ki, cərimələrin tətbiq olunması sırf vətəndaşların xeyrinədir".

Ekspert onu da vurğuladı ki, bu sahədə problemlər çoxdur: "Həm təbliğat zəif aparılır, həm də cərimələr azdır. Vətəndaşlar onların qapısını döyən sığortaçıların üzünə qapını açmırlar. Mənzil-istismar idarələri fəaliyyət göstərsələr, bəlkə onların vasitəsilə sığorta problemini həll etmək olardı. Tədqiqatlar göstərir ki, icbari sığortanın tətbiq edilməsinin az olması buna nəzarət mexanizminin zəif olması ilə əlaqədardır. O üzdən, nəzarət mexanizminin, qanunvericiliyin gücləndirilməsinə ehtiyac var. Qanunvericiliyin möhkəmləndirilməsi olduqca vacibdir".

*Günel CƏLİLOVA*

**Abbas Zamanov 1911-ci il oktyabrın 10-da Şərur rayonunun Maxta kəndində anadan olub. 1921-1927-ci illərdə ailə vəziyyətinin ağır olması üzündən əvvəlcə Naxçıvan, sonra isə Bakı şəhərində uşaq evlərində yaşayıb və təhsilini davam etdirib. Həyatı əzab-əziyyətlərlə, məşəqqətlərlə keçən Abbas Zamanovun arxa-dayağı kitablar olub. Çətinliklə də olsa təhsilini davam etdirib, həyatın ən ağır sınaqlarından keçib, həyatda hər şeyə öz gücü ilə müvəffəq olub.**

# Tarixdə iz buraxanlar: Abbas Zamanov



1926-cı ildə Bakı Pedaqoji Texnikumuna daxil olan Abbas Zamanov öz fəallığı, işguzarlığı ilə başqalarından seçilib və onun qeyri-adi xüsusiyyətlərini nəzərə alıb komsomol sistemində rəhbər vəzifəsinə təyin ediblər. 1933-cü ilə kimi komsomol işlərində çalışan Abbas Zamanov elmi yaradıcılıq işlərindən uzaq düşməmək üçün komsomol işlərindən ayrılaraq "Gənc işçi" qəzetində redaktor müavini, "Gənc bolşevik" qəzetində redaktor vəzifəsində çalışmağa başlayıb. Sonralar o, "Ədəbiyyat və incəsənət" qəzetində məsul katib, "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri vəzifələrində işləyib. Abbas Zamanov bir müddət Azərbaycan Dövlət Filarmoniyasının və Azərbaycan Opera və Balet Teatrının direktoru vəzifələrində də çalışıb. Bütün bunlarla yanaşı, Abbas Zamanov heç vaxt elmi tədqiqatlarından əl çəkməyib, daim axtarışlar aparıb, necə deyərlər, "qələmini öz biliyinin gücü ilə möhkəmləndirib".

Abbas Zamanov Böyük Vətən müharibəsi dövründə öz qələmini süngüyə çevirib, Səməd Vurğun demişkən "məsləh əsgər" olub. Müharibənin ilk günlərindən cəbhəyə yola düşüb və "Döyüşən Krım" qəzetində tərcüməçi vəzifəsində çalışaraq, cəbhə həyatını əks etdirən oçerklərlə müntəzəm olaraq çıxışlar edib, 1947-ci ilə kimi orduda xidmət edib.

Abbas Zamanov ordu sıralarından tərxis olunduqdan sonra elmi-pedaqoji fəaliyyətə başlayıb, 1948-ci ildən müəyyən fasilələrlə Azərbaycan Dövlət Universitetində ömrünün sonunadək müəllim işləyib, elmi-tədqiqat işləri ilə məşğul olub. Belə ki, 1948-1960-cı illərdə ADU-da müəllim, 1960-1968-ci illərdə Azərbaycan MEA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, 1968-1971-ci illərdə Nizami adına Ədəbiyyat muzeyinin direktoru, 1971-1979-cu illərdə ADU-nun Azərbaycan Ədəbiyyatı kafedrasının müdiri, Xəbərlər Mətbuat Agentliyi Azərbaycan Şurasının sədri və s. məsul vəzifələrdə işləsə də, daimi iş yeri ADU olub.

Azərbaycanda peşəsindən, hansı sahədə çalışmasından asılı olmayaraq eloba hörməti qazanan nüfuzlu adamlara "müəllim" deyə müraciət etmək bir adət halını alıb. Abbas Zamanov başqa sahədə çalışsaydı belə, yenə də onun adının qarşısında "müəllim" kəlməsi işlənərdi. Çünki o, bütün varlığı ilə mənsub olduğu xalqa təmənnasız xidmət edən bir ziyalı olub.

Bununla yanaşı, elə əsl sənəti müəllimlik olub. Orta məktəbdə də dərs deyib, ali məktəblərdə də və həmişə ədəbiyyatımızı, zəngin mədəniyyətimizi təbliğ edib. Hazırda elm və maarif sahəsində çalışan bir çox alimlərimizin müəllimi olub.

Abbas Zamanov xalqımızın yetişdirdiyi və ədəbiyyatımızı hərtərəfli inkişaf etdirən korifeylərdən biridir. Bu görkəmli alimin yaradıcılıq diapazonu geniş və çoxşaxəlidir. Onun elmi yaradıcılığının əsasında M.Ə.Sabirin həyatı və yaradıcılığı durur. O, ömrünün böyük bir hissəsini M.Ə.Sabir irsinin öyrənilməsinə sərf edib. "Müasirləri Sabir haqqında" (1962), "Əməl dostları" (1979), "Sabir gülür" (1982), "Sabir bu gün" (1985) və s. bu kimi sanballı əsərlər Abbas Zamanovun qələminin məhsuludur.

1967-ci ildə "Sabir və müasirləri" mövzusunda yazdığı namizədlik dissertasiyasının dərin məzmununa, geniş əhatə dairəsinə görə Ali Attestasiya Komissiyası onu birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görüb. Beləliklə, Abbas Zamanov Azərbaycan filologiyası sahəsində tarixdə ilk dəfə olaraq birbaşa doktorluq alimlik dərəcəsi alan elm xadimi olub.

Abbas Zamanov yaradıcılığı ilə bərabər böyük ictimai xadim idi. O, hələ Sovet hökumətinin "qılıncının qabağı da, dalı da kəsəndə" dünya azərbaycanlıları ilə əlaqə saxlayırdı. Belə ki o, öz hesabına Azərbaycanda nəşr edilən qiymətli əsərləri dünya azərbaycanlılarına çatdırırdı. Xaricdə olan azərbaycanlılar da Abbas müəllimə özlərində nəşr edilən ədəbiyyatları göndərirdilər. O dövrdə ağır iş olsa da, Abbas müəllim bu işin öhdəsindən layaqətlə gəlirdi. İndi qardaş Türkiyə Cümhuriyyətində, Ərzurum Atatürk Universitetində onun göndərdiyi kitablardan ibarət 6 minə yaxın fondu olan "Abbas Zamanovun Bağış Kitabları" adlı kitabxana fəaliyyət göstərir.

Tarixi şəxsiyyət Abbas Zamanov üçün Vətən, millət hər şeydən üstün idi. Xeyirxah əməllərlə dolu olan ürəyi həmişə Vətən, millət üçün döyünər, çırpınardı. O hər zaman millətilə fəxr edər, Vətənin dar günündə isə narahatlıq keçirərdi. Vətəni sevmək azdır, onu qorumaq daha vacibdir! Əlbəttə, hər kəs Vətəni sevdiyini sözlə ifadə edir, amma yeri gələndə əməldə təsdiq edə bilmir. Hər bir azərbaycanlı yaxşı bilir ki, professor Abbas Zamanov Vətənini, millətini sevdiyini əməldə də təsdiq edib.

Tarixdən məlumdur ki, mənfur qonşularımız zaman-zaman bizə ərazi iddiaları edib, tarixi ərazilərimizi işğal edərək öz ərazilərinə qatıb və ərazilərini bizim torpaqlar hesabına genişləndiriblər. Bu barədə mən uzun-uzadı danışmaq istəmirəm, ona görə ki, bununla bağlı çox deyilib, çox yazılıb. Doğrudur, bu mövzuda mən uzun illər boyu ciddi-ciddi araşdırmalar apararaq rəsmi arxiv sənədləri əsasında 6 cildlik, 5 min səhifəyə yaxın bir kitab yazıb gələcək nəslə, insanlığa çatdırmışam... Bu məsələ Abbas müəllimin də gündəmində olub. Bircə faktı qeyd etmək istəyirəm ki, keçən əsrin 60-cı illərində mənfur qonşularımız bizə yenə ərazi iddiası etdilər. Bu dəfə onlar qədim Azərbaycan eli olan Naxçıvanı hədəf götürdülər. O zaman SSRİ dövlətinə rəhbərlik edən N.S.Xruşşovun maymaqlığından istifadə edərək, Naxçıvanı Azərbaycandan ayırıb Ermənistana vermək məsələsini siyasi büroya çıxartdılar. Bu işə, Azərbaycanın bir nömrəli düşməni A.Mikoyan rəhbərlik edirdi. Onlar siyasi bürodan da bu işin artıq, ruslar demişkən, "dobrosu"nu almışdılar.

Məsələ çox ciddi idi. Bu məsələ Abbas müəllimi çox narahat etməyə başlayır. O, fürsət axtarır ki, bu məsələni Azərbaycan ictimaiyyətinə çatdırsın. Özü də bilirdi ki, bu məsələ haqqında danışsa ona ağır başa gələcək. Belə bir fürsət nəhayət ki, yaranır...

Azərbaycan Elmlər Akademiyasının böyük akt zalında Səməd Vurğuna həsr olunan gecə keçirilirdi. Dəvət olunanlar arasında Abbas müəllim də vardı. Salon ağzına qədər dolu idi. İclası akademik Məmməd Arif aparırdı. O, çıxış üçün sözü Abbas müəllimə verdi. Abbas müəllim Səməd Vurğun yaradıcılığı haqqında çıxış edərək, axırda sözünü belə yekunlaşdırdı ki, bu gün Səməd Vurğun sağ olsaydı, deyərdi ki, biz Naxçıvanı ermənilərə vermərik. Bu sözdən sonra salonu gurultulu alqışlar bürüdü. Adətən belə vəziyyətdən ustalıqla çıxmağı bacaran Məmməd Arif aranı sakitləşdirmək istədi, amma Abbas müəllim yenidən tribunaya qayıtdı və dedi: "Mən sözümü demişəm və sözümdən də qaçmıram". Sonra nələr baş verdi, nələr...

Abbas müəllim o zaman üçün ağır cəza olan Kommunist Partiyası sıralarından xaric edildi. ADU-dan işdən çıxarıldı və məşəqqətli günləri başladı... Amma Abbas müəllim heç vaxt sözündən dönmədi. Naxçıvan məsələsi də müsbət həll olundu, Abbas müəllim də yenidən partiya sıralarına qaytarıldı, yenidən ADU-da işə bərpa olundu. Necə deyərlər, "haqq incələr, amma üzülməz." Abbas müəllimin bu cəsarəti SSRİ hökuməti dövründə Naxçıvan söhbətinə son qoydu. Keçən əsrin 80-ci illərinin axırı, 90-cı illərin əvvəllərində də mənfur qonşularımız yenidən Naxçıvana göz dikdilər. Ermənilər tez-tez Sədərəki ətəşə tutaraq Naxçıvanı işğal etmək istəyirdilər. Naxçıvanlılar mərdliklə vətənlərini qoruyurdular. 90-cı illərdə Abbas müəllim Naxçıvana gəldi və Sədərəkdə vuruşan qəhrəmanlarımızla şəxsən özü görüşdü. Bu, Abbas müəllimin Naxçıvana son gəlişi oldu. Abbas Zamanovun vətənpərvərliyi haqqında fikrimi professor Şamil Qurbanovun bir deyimi ilə tamamlamaq istəyirəm. O yazırdı: "Biz hamımız yüksək vətəndaşlıq hissini, vətənpərvərlik duyğusunu, xalqa vurğunluğu birinci növbədə Abbas Zamanovdan öyrənmişik".

Bu gün cəsarətlə deyə bilərik ki, 60-cı illərin hadisələrində Abbas Zamanovun cəsarəti, qeyrəti, doğru sözü qəlblərdə, fikirlərdə inqilab edərək, bizə cəsarətli olmağı, doğru söz deməyi öyrətdi.

Abbas Zamanov yaşadığı dövr ərzində çox məhsuldar işləyib. O, ədəbiyyatın hər sahəsində külüng çalıb və uğurlar qazanıb. Alimin yaxın dostu, ədəbiyyatşünas alim Əziz Şərif onu belə səciyyələndirib: "Heç bir ədəbiyyat sənin kimi fədakar mücahidsiz ötüşə bilməz. Vay o ədəbiyyatın halına ki, onun Abbas Zamanovu olmasın".

Abbas Zamanovun şöhrəti, alim nüfuzu İttifaqda və xaricdə də bəllidir. O çətin illərdə xaricdə yaşayan azərbaycanlılarla çoxcəhətli elmi-mədəni əlaqələrin yaranmasında Abbas müəllimin xidmətləri əvəzsizdir. Avropadakı Azərbaycan mühacirətinin Vətənlə əlaqəsi daha çox onun vasitəsilə mümkün olub. Ədəbiyyat və mədəniyyətimizin təbliği sahəsində Abbas Zamanov bir institut kollektivi qədər iş görüb.

Ulu öndər Heydər Əliyev Abbas Zamanovun yaradıcılığını və fəaliyyətini yüksək dəyərləndirir, daim onunla əlaqə saxlayırdı. Təsadüfi deyil ki, Moskvadan Azərbaycana, doğma Naxçıvana qayıdarkən onu ilk ziyarət edənlərdən və mənəvi dəstək olanlardan biri də Abbas Zamanov idi. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, Abbas Zamanovun vəfatı hər kəsi kədərləndirdiyi kimi, Heydər Əliyevi də dərindən kədərləndirmişdi. O, Abbas Zamanovun Azərbaycan ədəbiyyatı üçün gördüyü nəhəng elmi işini, vətənpərvərliyini, xeyirxahlığını xüsusi vurğulayırdı. Onun Abbas Zamanovun vəfatı ilə bağlı 1 aprel 1993-cü il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasına ünvanladığı teleqramda deyilirdi: "Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, professor Abbas Zamanovun vəfatı bizi dərindən kədərləndirir. Abbas Zamanovun vəfatı ilə əlaqədar Naxçıvan Muxtar Vilayətinin əhalisi adından Azərbaycan Milli Elmlər Akademiyasına, ADU-ya, mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm. Vətənpərvər alim, xeyirxah insan Abbas Zamanovun xatirəsi daim qəlbimizdə yaşayacaqdır". Bu da bir həqiqətdir ki, Abbas Zamanov unudulmaq deyil, yaşadılmaq haqqı olan nadir şəxsiyyətlərdən idi. Ümid edirik ki, qədirbilən Azərbaycan xalqı heç vaxt Abbas Zamanovu unutmayacaq və daim onu yaşadacaq.

1993-cü il aprel ayının 1-də Bakıda vəfat edən bu tarixi şəxsiyyət ikinci Fəxri Xiyabanda dəfn olunub.

Allah rəhmət eləsin.

***Fazil QARAOĞLU***
***Professor***

№ 61 (3959) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

6-8 APREL 2019-cu il

www.baki-xeber.com



# Qaxda 300 min ilədək yaşı olan daş əmək aləti tapıldı

**Keçəldağda yerləşən alban məbədinin ərazisindən 300 min ilədək yaşı olan daş əmək aləti tapılıb. "AZƏRTAC" Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Mahir Əfəndi məlumat verib.**

Direktorun sözlərinə görə, qədim əmək aləti bir neçə il əvvəl AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, arxeoloq Natiq Alışovla birgə həmin abidəyə səyahət etdikləri zaman təsadüfən tapılıb. Tapıntının tarixi əhəmiyyətini nəzərə alaraq, 2018-ci ildə arxeoloq Mənsur Mənsurov tərəfindən bu əraziyə baxış keçirilib. Bu ilin martında arxeoloqlar Natiq Alışov və Azad Zeynalov paleolit dövrünə aid daş əmək alətinin tapıldığı həmin əraziyə yenidən kəşfiyyat xarakterli səfər ediblər. Ərazi ilə yaxından tanış olan alimlərin deyinə görə, həmin tapıntının tarixi 300 min il əvvələ gedib çıxır. Qədim dövrlərdə bu daş alətdən balıq və quş ovlamaq, heyvanların dərisini soymaq üçün, həmçinin digər əmək fəaliyyətlərində istifadə edilib. Mahir Əfəndi bildirib ki, bu daş əmək aləti Qax rayonu ərazisində aşkar edilən ilk tapıntı deyil. 2013-cü ilin yayında rayonun Ləkit-Kötüklü kəndi ətrafında paleolit dövrünə aid Xorqaya mağarasında 2 metr dərinlikdə çöküntülər altında iri ocaq yeri və onun ətrafında yastı qaya daşları düzülmüş sahə qeydə alınıb. Ərazidən orta aşel (450 min il əvvəl) dövrünə aid çopper (kobudvurma aləti), bıçaq, yonma-sıyırma və çapma alətləri tapılıb. İki il sonra, 2015-ci ilin avqustunda Xorqaya mağarasında aparılan qazıntılar nəticəsində 5-6 metr dərinlikdə mədəni təbəqələrdən sümükdən yonulub hazırlanmış 12 santimetr uzunluğunda iynə, biz, çopper, kəsmə, doğrama, dişli qaşov tipli sıyırma, ütü, rəndə formalı yonma-sığallama alətləri tapılıb. Alt laylardan isə kömürlə yanaşı, 670 min il əvvəl yaşamış irionurğalı və xırdabuynuzlu heyvanlara, quş və gəmirici kimilərə aid edilən fauna qalıqları götürülüb.

Muzeyin direktoru gələcəkdə məbəd qalıqlarının ərazisində aparılacaq arxeoloji kəşfiyyat və tədqiqat işləri zamanı Qaxın uzaq keçmişinə aid daha qədim, qiymətli tapıntıların aşkar ediləcəyinə inandığını bildirib.

## NASA astronavtları Aya Falcon Heavy raketləri ilə göndərəcək

**NASA astronavtları Aya göndərəcək Orion missiyasını Falcon Heavy raketləri ilə həyata keçirməyi nəzərdə tutur. AZƏRTAC "ARSTechnica" saytına istinadla xəbər verir ki, bununla bağlı kosmik agentlikdə geniş müzakirələr aparılıb.**

NASA-nın rəhbəri Cim Braydenstayn bildirib ki, Falcon Heavy raketləri və ICPS (Interim Cryogenic Propulsion Stage) raket nərdivanları 2022-ci ildə astronavtları Aya endirmək üçün ən yaxşı vasitələrdir. Onun sözlərinə görə, bunun üçün Orion kosmik gəmisinin Marsa və Aya uçacaq qədər yanacaqla təmin olunması problemi həll edilməlidir. NASA-nın rəhbəri əlavə edib ki, texniki detalların həlli qarşıdakı 3 ildə ən başlıca vəzifələr olacaq. "AZƏRTAC" bildirir ki, NASA-nın rəhbəri Cim Braydenstayn mart ayında keçirilən görüşdə ABŞ-ın vitse-prezidenti Mayk Pensi əmin edib ki, missiyanın ilk sınaq uçuşu 2020-ci ildə həyata keçiriləcək, 2022-ci ildə isə Aya pilotlu kosmik gəmi göndərmək mümkündür. O qeyd edib ki, Falcon Heavy raketi maksimal konfiqurasiyada Yerətrafı orbitə 64 ton yük çatdıra bilər. Amerikanın "Lockheed Martin" şirkətinin 2014-cü ilin dekabrında hazırladığı Orion kosmik gəmisi ilk uçuşunu həyata keçirib. Raketdaşıyıcının kosmosa ilk uçuşu isə 2020-ci ildə həyata keçiriləcək.

## Dünyada ilk istilik batareyası təqdim edilib

**Avstraliyalı startapçılar dünyada ilk işlək istilik batareyası hazırlayıblar.**

Batareyanın istismar müddəti 20 ildir və litium-ion batareyaları ilə müqayisədə 6 dəfə daha çox enerji saxlaya bilər, həmçinin 60-80 faiz ucuzdur. "AZƏRTAC" bildirir ki, "TED" (Thermal Energy Device) - bu, istənilən növ elektrik enerjisini (günəş, külək, qalıq və bilavasitə şəbəkədən alınan) birləşdirə bilən modulyar enerji toplayıcısıdır və onu xüsusi izolyasiyalı kamerada silisiumun qızdırılması və əridilməsi üçün istifadə edir. Standart TED batareyası özündə 1,2 meqavat-saat enerji saxlayır və asanlıqla 6 metrlik konteynerə yerləşir. İstehsalçıların məlumatına görə, yeni həll qurğuşun-turşu batareyası ilə müqayisədə 12 dəfə, litium-ion batareyaları ilə müqayisədə isə bir neçə dəfə çox enerji saxlaya bilər.




## Elan

Şəki rayonu, Böyük Dəhnə kənd sakini Mustafayeva Xanım Əhməd qızının və ailə üzvlərinin adına verilmiş JN: 0058 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Abdulkərimov Telman Əsabəli oğlunun adına verilmiş 404013000820-10301 saylı daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

Cəhtinicat Röya Mirdavud qızının adına, Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsindəki 11 saylı bağ sahəsinə verilmiş çıxarış (seriya RX № 0803052) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Cəhtinicat Röya Mirdavud qızının adına, Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsindəki 10/272 saylı bağ sahəsinə verilmiş çıxarış (seriya RX № 0819409) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Məmmədov Mais Əhməd oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi, ev 23, mənzil 31 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əlirzayev Müşfiq Bəylər oğlunun adına, Bakı şəhəri, M.Ə. Rəsulzadə qəsəbəsi, Bakı küçəsi, ev 23 A ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Kəmalə Vaqif qızının adına, Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı qəsəbəsi, K.Rzayev küçəsi, keçid-2213, ev 18, mənzil 6 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.






**Qoç** - Günün ilk yarısı ilə bağlı planlar quranda unutmayın ki, hətta ən sadə və asan işlərin həlli nəzərdə tutulduğundan artıq vaxt alacaq. Yolda ləngimə, təxirəsalma riskləri də az deyil. Yolda gecikmələr də ola bilər.



**Buğa** - Unutmayın ki, yaxın gələcəklə bağlı planlar qurursunuz. Nəyi həyata keçirmək istədiyinizi müəyyənləşdirin. Əfsuslar olsun ki, bir sıra məsələlərdə sizi pərişanlıq gözləyir.



**Əkizlər** - Səhər saatlarında xüsusilə diqqətli və səbrli olun. Həmkarlar, işgüzar tərəfdaşlar və işdəki rəhbərliklə təmaslarda diqqətli olun. Yalnız belə olarsa, sonradan uzunmüddətli münaqişələrə təməl olacaq mübahisənin qarşısını ala bilərsiniz.



**Xərçəng** - Bilin ki, günün ilk yarısı uğurlu olacaq. Qərarları vaxtında qəbul edərək qətiyyətli addımlar atsanız, göstərdiyiniz səylər peşəkar fəaliyyət sahəsində ciddi irəliləyişlə sonuclanacaq.



**Şir** - Gerçəkdən də, qarışıq, mürəkkəb, çətin gündür. Fəqət, problemlər müvəqqəti səciyyəlidir və az sonra həll olunacaqlar. Uzunmüddətli öhdəliklər götürməyin, vədlər verməyin. Cari işləri başa vurmamış yeni planlar qurmayın.



**Qız** - Narahat olmayın, əlverişli və yaxşı gündür. Ciddi uğurlara nail ola bilərsiniz. Qəbul etdiyiniz qərarlar qeyri-standart olarsa, qarşınıza qoyduğunuz məqsədlərə çata bilərsiniz.



**Tərəzi** - Günün ilk yarısında işdə uğurlar istisna deyil. Nüfuzlu insanlarla görüşlər pis keçmir. İşdə rəhbərliklə söhbətin konstruktiv olmasına çalışın. Karyerada irəliləyişə və ya maaşın artırılmasına nail olmaq şansları var.



**Əqrəb** - Yaranan problemləri müstəqil, kimsədən yardım gözləmədən həll etməyə çalışsanız, əhəmiyyətli irəliləyişlərə nail ola bilərsiniz. Əməkdaşlıq effektiv olsa da, psixoloji baxımdan qeyri-komfort sayıla bilər.



**Oxatan** - Günün ilk yarısı sakit və rəvan zamandır. Adi, cari və rutin işlərin öhdəsindən asanlıqla gələcəksiniz. Prinsipial baxımdan yeni problemlərin həllinə, yaxud da genişmiqyaslı layihənin reallaşdırılmasına başlamayın.



**Oğlaq** - səbrli, təmkinli olsanız, böyük uğurlara və əhəmiyyətli irəliləyişə nail ola bilərsiniz. İntuisiyanızın səsinə qulaq asın. O, ən yaxşı nəticələrə nail olmaq üçün nə zaman nə etməyi sizə deyəcək.



**Dolça** - Hisslərin əsiri olmayın. İşgüzar görüşlər, əməkdaşlıq şərtlərinin müzakirəsi, yeni sərfəli tərəfdaşlığa başlamaq üçün əlverişli gündür. Təşkilati fəaliyyətlə bağlı ideyalar pis deyil.



**Balıqlar** - Yaranmış situasiyanı dəyərləndirmək çətin olsa da, bu işin öhdəsindən gəlməyə çalışın. Bəzi qərarlar və addımlarınızın yanlış olduğunu etiraf etmək üçün özünüzdə cürət tapın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən böyük süzənəsi Özbəkistanda toxundu



**Aprelin 5-dən 10-dən Özbəkistanın Surxandərya vilayətində keçiriləcək Birinci Baxşi Festivalı çərçivəsində Baysun xalçaçıları dünyanın ən böyük süzənəsini toxuyublar.**

"AZƏRTAC" bildirir ki, uzunluğu 25, eni altı metr, çəkisi 60 kiloqram olan süzənənin üzərində 25 toxucu və usta işləyib. Baysun naxışlarının və ornamentlərinin yer aldığı süzənə regionun milli koloritini tam mənası ilə əks etdirir. Xatırladırıq ki, süzənə ipək, məxmər və pambıq parça üzərində toxunan divar xalçasıdır.

***Hazırladı: Ramil QULİYEV***


**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

***e-mail: azer22@mail.ru***

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.